QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 124 (5844) **12 iyul** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Uğurlu sosial islahatlar əhalinin rifah halını yüksəldir

İyunun 18-də imzalanan 17 Sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu, bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində, artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir



Səh 2

4

"Yay məktəbi" layihəsi gənclər tərəfindən böyük maraqla qarşılanır



6

Rusiyanın səfiri: "Mən həmişə Azərbaycan mətbuatına açıq olmuşam"



7

XİN: "Azərbaycan Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi məsələsini hər zaman diqqət mərkəzində saxlayır"



# Uğurlu sosial islahatlar əhalinin rifah halını yüksəldir

***İnsana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Prezident İlham Əliyevin apardığı siyasətin mühüm prinsiplərindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurlu sosial siyasətin həyata keçirilməsi, ilk növbədə, belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, bu siyasətin əsas məqsədi Azərbaycanda sosialyönümlü dövlət quruculuğunu təmin etməkdir. Söz yox ki, bu istiqamətdə də, son illər mühüm və ardıcıl addımlar atılmaqdadır. Prezident İlham Əliyev hər zaman öz çıxışlarında sosial siyasəti dövlət siyasətinin ən zəruri sahələrindən biri kimi dəyərləndirərək, vurğulayıb ki, layiqli sosial siyasət qarşıdakı illərdə də Azərbaycan hökumətinin fəaliyyətinin prioriteti olaraq qalacaq.***



*İyunun 18-də imzalanan 17 Sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu, bir daha təsdiq edir və bu istiqamətdə cari il ərzində, artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir*

Hər il vətəndaşların əməkhaqlarının, pensiyaçıların təqaüdlərinin, aztəminatlı ailələrə, şəhid ailələrinə, Qarabağ əlillərinə, eyni zamanda, sağlamlığı məhdud olan vətəndaşlara verilən sosial müavinətlərinin artırılması da, buna olan bariz sübutdur. Bu, Azərbaycanda insanların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan zəruri addım kimi qiymətləndirilir. Bu baxımdan, Prezident İlham Əliyevin dövlət qulluqçularının, hərbi qulluqçuların, hüquq-mühafizə orqanı əməkdaşlarının və digər xüsusi rütbəli şəxslərin, müəllimlərin, habelə, dövlət büdcəsindən maliyyələşən bir sıra digər təşkilatlarda çalışan işçilərin əməkhaqlarının böyük dərəcədə artırılması barədə iyunun 18-də imzaladığı sərəncamlar dövlətimizin həyata keçirdiyi sosial siyasətin inqilabi xarakter daşıdığını əyani şəkildə göstərir.

Sosial ədalət prinsiplərinin daha da möhkəmləndirilməsi məqsədilə Prezident tərəfindən minimum əməkhaqqının məbləği 40 faizə yaxın artırılaraq, 250 manata çatdırılıb. Minimum əməkhaqqının artımı birbaşa 950 minədək vətəndaşı əhatə edəcək. Həmin insanlardan 600 mini dövlət sektorunda, 350 mini özəl sektorda işləyənlərdir. Bu artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 780 milyon, 2019-cu ilin sentyabr-dekabr ayları üzrə 245 milyon manat əlavə vəsait ayrılması təmin olunacaq. Sərəncamla minimum əməkhaqqının məbləğinin 250 manata çatdırılması dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşları üzrə orta əməkhaqqının da, orta hesabla 40 faiz artmaqla, 265 manatdan 367 manata çatmasına imkan verir.

İyunun 18-də imzalanan 17 Sərəncam ölkədə sosial rifahın yüksəldilməsinin Prezident İlham Əliyevin uğurlu sosial-iqtisadi siyasətinin prioritet istiqaməti olduğunu bir daha təsdiq edir və bu istiqamətdə, cari il ərzində, artıq ikinci böyük sosial paketin reallaşdırıldığını göstərir. Dövlətimizin başçısı tərəfindən aparılan sosial-iqtisadi siyasətin qayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən bu sərəncamlar, ümumilikdə, 2 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaq.

Misal üçün, bu illərdə gözlənilən daha bir proses artıq reallaşdırılıb. Belə ki, bundan sonra ölkədə aztəminatlı ailələr və gənclər daha güzəştli şərtlərlə mənzillərə sahib ola biləcəklər. Məlumat üçün onu da qeyd edək ki, bir müddət əvvəl, sözügedən prosesi sürətləndirmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi də yaradılıb. Məhz bunun nəticəsidir ki, artıq güzəştli şərtlərlə mənzil almağın şərtləri də müəyyənləşdirilib, insanlar bundan faydalanmağa başlayıblar. Media işçilərinə, qaçqın və məcburi köçkünlərə də mənzillərin verilməsi prosesi bu siyasətin tərkib hissəsi olaraq yüksək dəyərləndirilir. O da, təsadüfi deyil ki, ölkə rəhbəri İlham Əliyev tərəfindən irəli sürülən bu təşəbbüs Onun sosial siyasətinin bir parçası kimi xarakterizə edilir və dövlətin vətəndaşa diqqət və qayğısı kimi səciyyələndirilir.

Məsələn, son illər yüz minlərlə yeni iş yeri açılıb ki, bu da işsizliyin aradan qaldırılmasında müstəsna rol oynayır. Bu, bir daha təsdiq edir ki, Azərbaycanda sosial dövlət quruculuğu modeli uğurla həyata keçirilməklə yanaşı, həm də digər ölkələrə göstərilən örnəkdir. Dövlət başçımız xalqın güzəranının yaxşılaşdırılması üçün bütün imkanlardan yüksək səviyyədə istifadə edir və bütövlükdə, son illər ərzində, çox ciddi sosial tədbirlərin reallaşdırılması da buna bariz sübutdur.

Daha bir önəmli məqamı da xatırlatmaq yerinə düşərdi ki, hər il dövlət büdcəsinin böyük bir hissəsi, məhz sosial məsələlərə yönəldilir ki, bu da, ölkəmiz üçün tamamilə məqbuldur. Bu, bir daha sübut edir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının yaxşılaşdırılması və onların bütün sosial qayğılarla əhatə olunmaları üçün güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir.

O da, bir həqiqətdir ki, sosial siyasətin uğrulu reallaşması üçün, ilk növbədə, güclü iqtisadiyyata malik olmaq lazımdır. Bu baxımdan, Azərbaycanın keçən dövr ərzində böyük inkişaf yolu keçməsi, ilk növbədə, həyata keçirilən düzgün iqtisadi siyasətlə əlaqədardır. Başqa sözlə desək, Azərbaycanın sürətli inkişafı və əldə edilmiş nailiyyətlər Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən siyasi və iqtisadi kursun məntiqi nəticəsidir.

Bu siyasət, müasir dünya iqtisadiyyatının tələblərinə müvafiq olmaqla, ölkəmizin tərəqqisini təmin edir. Makroiqtisadi sabitliyin qorunub-saxlanması, enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin olunması, iqtisadiyyatın şaxələndirilməsi, bir sözlə, bütün sahələrdə davamlı inkişaf strategiyası uğurla həyata keçirilməkdədir. Ölkənin qeyri-neft sektorunda müşahidə olunan dinamizmi də iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı həyata keçirilən siyasətin mühüm nəticəsi hesab etmək olar. Xüsusilə, Azərbaycan zəngin neft resurslarının satışından daxil olan valyuta ehtiyatlarını səmərəli şəkildə xərcləməklə iqtisadiyyatın bütün sektorlarının dinamik inkişafı üçün əlverişli baza yaratmağa nail olub və hazırda qeyri-neft sektoru valyuta gətirə biləcək strateji bölməyə çevrilib. Şübhəsiz, sürətli iqtisadi inkişaf vətəndaşların maddi rifah halının yaxşılaşdırılmasında əks olunur. Xüsusilə də, yoxsulluq səviyyəsinin aşağı salınması və əhalinin məşğulluğunun təmin olunması istiqamətində görülən fundamental tədbirlər bu istiqamətdə qarşıya qoyulan məqsədlərin təmin olunmasında əhəmiyyətli rol oynayır. Bu siyasətin davamlı xarakter alması üçün dövlətimiz bütün uğurlu vasitələrdən istifadə edir və atılan addımların yaxın gələcəkdə daha çox səmərə verəcəyini artıq indidən proqnozlaşdırmaq olar. Belə ki, hər bir azərbaycanlı ölkədə yürüdülən uğurlu sosial siyasətin bəhrəsini görəcək.

***Rövşən NURƏDDİNOĞLU***

# Mavritaniya portalında Azərbaycanın diplomatik xidmət orqanlarının 100 illik yubileyi ilə bağlı məqalə yerləşdirilib

***Mavritaniyanın "Tigent" xəbərlər portalında Azərbaycanın Mərakeşdəki səfiri Oktay Qurbanovun müəllifi olduğu "Azərbaycan diplomatiyasının 100 illik yubileyi" başlıqlı məqalə yerləşdirilib.***

AZƏRTAC xəbər verir ki, yazıda Xarici İşlər Nazirliyinin yaranma tarixi, inkişaf mərhələləri, habelə müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin ilk Xarici İşlər naziri Məhəmmədhəsən Hacınskinin həyatı barədə məlumat verilir.

Qeyd olunur ki, bu gün Azərbaycanın xarici siyasəti çox çevik və dinamikdir. Ümummilli lider Heydər Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində Azərbaycan hərtərəfli və dinamik inkişaf yoluna qədəm qoyub, ölkəmizin davamlı sosial-iqtisadi inkişafı təmin edilib. Bu gün Azərbaycanın mövqeyi nəzərə alınmadan regionda hər hansı iri layihəni həyata keçirmək mümkün deyil.

Məqalədə Azərbaycanın xarici siyasətinin uğurları barədə bəhs edilir, ölkəmizin 2006-cı ildə BMT-nin İnsan Hüquqları Şurasının, 2012-2013-cü illər üzrə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildiyi, həmçinin İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində vacib rolu qeyd olunur.




Müəllif vurğulayır ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü və onun nəticəsində Dağlıq Qarabağ və ətraf yeddi rayon da daxil olmaqla, Azərbaycan ərazisinin 20 faizinin işğalı və bir milyondan çox azərbaycanlının öz doğma torpaqlarından didərgin salınması xalqımızın ən ağrılı problemidir. Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində maddi-mədəniyyət və dini abidələrin dağıdılması, talan və təhqir edilməsi, mənimsənilməsi kimi məqsədli siyasət həyata keçirir.

Məqalənin müəllifi hər bir Azərbaycan vətəndaşının qəlbində yaşayan ümummilli lider Heydər Əliyevin ölkəmizin müasir tarixində misilsiz roluna xüsusi diqqət ayırır. Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası üçün vacib rol oynayan neft strategiyası genişləndirildi, ölkənin infrastrukturu yenidən quruldu və bərpa edildi.

Məqalədə müasir dünyada qadınların sosial-siyasi sahədə rollarının, ictimai fəallıqlarının xüsusi əhəmiyyəti qeyd olunur, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti barədə məlumat verilir, bu fəaliyyətin beynəlxalq ictimaiyyət tərəfindən də yüksək dəyərləndirildiyi ifadə olunur. Mehriban Əliyevanın UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri adına layiq görüldüyü vurğulanır.

Bildirilir ki, ümummilli lider Heydər Əliyevin əsası qoyduğu siyasi-iqtisadi kurs özünü doğruldub. Bu gün həmin strateji istiqamət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsində Azərbaycan yeni dövrə qədəm qoyaraq özünün siyasi, iqtisadi müstəqilliyini qoruyub saxlamağa müvəffəq olub, son illər ərzində bütün sahələrdə böyük tərəqqi əldə edib, dünyanın ən sürətlə inkişaf edən ölkələrindən birinə çevrilib.

# Azərbaycanın dünyada tanıdılmasında hədəflər uğurla reallaşır

***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi iyulun 15-dən "Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru" adlı IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi layihəsinə başlayacaq.***

Cari ilin 15-21 iyul tarixlərində keçirilməsi nəzərdə tutulan növbəti IX Beynəlxalq Multikulturalizm Yay Məktəbini Multikulturalizm Mərkəzi Böyük Britaniyada yerləşən "Gənclər Arasında Ümumi Söz" beynəlxalq təşkilatı və Azərbaycan Respublikasının Gənclər Fondu ilə birgə təşkil edəcək. Sözügedən yay məktəbi çərçivəsində "Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru" mövzusunda I Beynəlxalq Gənclər Forumunun keçirilməsini planlaşdırır. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin mətbuat xidmətindən "Səs" qəzetinə verilən məlumata görə, üç gün davam edəcək forumda "Millətlərarası münasibətlərin gələcəyə inteqrasiyası" adlı plenar sessiya və "Sülh üçün dialoq", "Dilərarası münasibətlərin müxtəlif platformalarda tətbiqi", "Din və münaqişələrin həlli yolu", "Multikulturalizm siyasəti və Azərbaycan multikulturalizmi modeli", "Millətlərarası münasibətlərin gələcəyə inteqrasiyası", "Din, texnologiya və gənclər: Dinlərarası gələcək" və digər mövzularında bölmə iclaslarının keçirilməsi nəzərdə tutulur.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yarandığı gündən Azərbaycan Prezidenti İlham Əliyevin qarşıya hədəf kimi qoyduğu Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı əhəmiyyətli layihələr gerçəkləşdirir. Mərkəzin önəmli layihələrindən biri də, artıq ənənəyə çevrilən, mütəmadi olaraq, ildə iki dəfə təşkil edilən Beynəlxalq Multikulturalizm Yay və Qış məktəbləridir. 2019-ci ilin yaz semestrində "Azərbaycan multikulturalizmi" və "Multikulturalizmə giriş" fənlərinin tədris olunduğu xarici və yerli universitetlərdə təhsil alan tələbələrin qatılacağı IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi iyulun15-dən 21-dək Bakı şəhəri ilə yanaşı, Oğuz, Şəki və Qəbələ rayonlarında fəaliyyət göstərəcək.

IX Beynəlxalq Multikulturalizm Yay Məktəbində 38 ölkənin - Azərbaycan, Madaqaskar, Mərakeş, ABŞ, Keniya, Çex Respublikası, Almaniya, Meksika, İngiltərə, Kanada, Hindistan, Avstriya, Yaponiya, Polşa, Rusiya, Efiopiya, Braziliya, Macarıstan, Türkiyə, Pakistan, Ruanda, Sudan, Myanma, Əlcəzair, Kamboca, Zambiya, Kamerun, Argentina, Rumıniya, Ukrayna, İran və Avstraliya kimi ölkələrin aparıcı universitetlərindən 110 tələbənin iştirak edəcəyi gözlənilir. Yay Məktəbinin iştirakçılarına Azərbaycandakı multikultural durum, tolerant əhval-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc yanaşı yaşamaları haqqında mühazirələr təqdim ediləcək.

Yay Məktəbi müddətində iştirakçıların BBMM-in Himayəçilər Şurasının sədri, akademik Kamal Abdullayev, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, professor Etibar Nəcəfov və Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin sədri Tural Gəncəliyev ilə görüşü planlaşdırılır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# İnsan Hüquqları üzrə Avropa komissarı ilə Ədliyyə Nazirliyində görüş keçirilib



İyulun 11-də Ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Avropa Şurasının insan hüquqları üzrə komissarı Dunya Miyatoviç ilə görüşüb. Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Avropa Şurası arasında səmərəli əməkdaşlığı vurğulayan nazir Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquqlarının təminatına xidmət edən məhkəmə-hüquq islahatları, məhkəmə infrastrukturunun müasirləşdirilməsi, elektron məhkəmənin tətbiqi, regional məhkəmələrin fəaliyyəti barədə məlumat verib. F.Məmmədov bu sahədə islahatların dövlətimizin başçısının 2019-cu il 3 aprel tarixli Fərmanı ilə yeni mərhələdə davam etdirildiyini deyib.

İnsan hüquqları üzrə Avropa komissarı kimi ilk dəfə ölkəmizə səfərindən məmnunluğunu ifadə edən qonaq səfərin məqsədinin insan haqlarının, o cümlədən məcburi köçkünlərin hüquqlarının təmini sahəsində dəstək göstərmək olduğunu bildirib, məhkəmə-hüquq sistemindəki islahatları və yenilikləri maraqla qarşılayıb.

Səfər zamanı penitensiar müəssisələrə baş çəkmək üçün yaradılmış imkana görə minnətdarlığını bildirən xanım D.Miyatoviç Azərbaycan tərəfinin "açıq qapı" siyasətini qarşılıqlı əməkdaşlığın və etimadın yaxşı təzahürü kimi dəyərləndirib, cinayət qanunvericiliyinin dekriminallaşdırılması məsələsinə toxunub.

Komissar cəza siyasətinin humanistləşdirilməsinə dair dövlətimizin başçısının 2017-ci il 10 fevral tarixli Sərəncamına əsasən, Cinayət Məcəlləsinə əsaslı dəyişikliklər olunaraq bir sıra əməllərin dekriminallaşdırıldığı, humanistləşdirmə tədbirlərinin bu gün də davam etdirildiyi barədə məlumatlandırılıb.

Görüşdə, həmçinin qanunvericiliyin təkmilləşdirilməsi, Avropa Məhkəməsinin qərarlarının icrası, bölgələrdə hüquq institutlarının inkişafı, vətəndaşlara göstərilən hüquqi yardımın keyfiyyətinin yüksəldilməsi, vəkillərin Ədliyyə Akademiyasında tədrisi və digər məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb, maraq doğuran suallara aydınlıq gətirilib. Tədbirdə Avropa Şurasının Bakıdakı Ofisinin rəhbəri Zoltan Hernyes və Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov iştirak ediblər.

# Mahmud Məmməd-Quliyev: Azərbaycan özünü bölgədə etibarlı tərəfdaş kimi təsdiq edib



"Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramının gələcəyi və uğuru regionda təhlükəsizliyin və sabitliyin qorunub saxlanılmasından asılıdır. Təhlükəsizlik və sabitlik inkişafın əsas qarantıdır. AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın Xarici İşlər nazirinin müavini Mahmud Məmməd-Quliyev iyulun 11-də Batumidə keçirilən "Şərq tərəfdaşlığı" proqramının 10 illiyinə həsr olunmuş beynəlxalq konfransdakı çıxışı zamanı söyləyib.

Azərbaycanın beynəlxalq əlaqələrindən danışan nazir müavini deyib: "Azərbaycan özünü bölgədə etibarlı tərəfdaş kimi təsdiq edib. Azərbaycanın demək olar ki, bütün qonşu ölkələrlə strateji tərəfdaşlıq münasibətləri var. Təəssüflər olsun ki, regional əlaqələr və sərhədyanı ticarət layihələri kimi bəzi regional perspektivlər həll olunmamış münaqişələrin girovuna çevrilib".

M.Məmməd-Quliyev deyib ki, Avropa Parlamentinin Avropa qonşuluq siyasəti haqqında qətnaməsində qeyd olunduğu kimi, "Şərq tərəfdaşlığı"na üzv bir ölkə digər tərəfdaş ölkənin ərazisini işğal edə bilməz. Ərazi bütövlüyü, müstəqillik, suverenlik və münaqişələrin sülh yolu ilə həll olunması məsələləri bütün sənədlərdə öz əksini tapmalıdır.

Nazir müavini Aİ və Azərbaycan arasında mövcud iqtisadi əməkdaşlıq məsələlərinə də toxunub. Bildirib ki, Azərbaycan Asiya və Avropa arasında təbii körpü olaraq 4 əsas nəqliyyat dəhlizinə böyük investisiyalar qoyur. Azərbaycanda, həmçinin Niderland, İtaliya, Gürcüstan, Ukrayna, Polşa, Rumıniya, Avstriya, Macarıstan və Almaniyanın loqistik şirkətləri fəaliyyət göstərirlər. Çin, Yaponiya, Cənubi Koreya və Vyetnam kimi bir sıra ölkələr Azərbaycanın nəqliyyat və loqistika potensialından istifadəyə cəlb oluna bilərlər. Bu istiqamətdə danışıqlar davam edir.

Enerji layihələrindən bəhs edən M.Məmməd-Quliyev Azərbaycanın Cənub Qaz Dəhlizinin reallaşadırılması vasitəsilə Aİ ilə strateji tərəfdaşlığı davam etdirdiyini xüsusi qeyd edib. Nazir müavininin sözlərinə görə, Azərbaycanda iqtisadi islahatlarla yanaşı, dövlət idarəçiliyinin gücləndirilməsi, qanunvericilik və insan haqları, korrupsiya ilə mübarizə və digər sahələrdə də genişmiqyaslı islahatlar həyata keçirilir. Təhsil sahəsinin inkişafı da daxili siyasətin əsas prioritetlərdən biridir. Belə ki, təhsilli, savadlı cəmiyyət uğurlu və dayanıqlı inkişafın zəmanətidir.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

12 iyul 2019-cu il

# "Yay məktəbi" layihəsi gənclər tərəfindən böyük maraqla qarşılanır

***Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin təşkil etdiyi "Yay məktəbi" layihəsi öz işini uğurla davam etdirir. Hər il olduğu kimi, bu il də "Yay məktəbi" ölkəmizin gözəl guşələrində olan Lerik rayonundakı "Relax" istirahət mərkəzində təşkil olunub. İstirahət mərkəzində beş gün müddətində YAP-ın gənc fəallarına Milli Məclisin bir neçə deputatının iştirakı ilə müxtəlif mövzularda seminarlar keçirilir, fikir mübadiləsi aparılır. YAP rəhbərliyi gənclərin siyasi fəallığının artırılması, asudə vaxtlarının səmərəli təşkili, beynəlxalq əlaqələrin genişlənməsi, ümumiyyətlə, ayrı-ayrı sahələr üzrə müxtəlif layihələrin həyata keçirilməsinə xüsusi diqqət yetirir. Bu layihələr sırasında 2007-ci ildən başlayaraq hər il keçirilən yay və qış liderlik məktəblərini xüsusi qeyd etmək lazımdır. Bu layihələrin əsas məqsədi Azərbaycan ərazisində yaşayan bütün gənclərin bir-birini daha yaxından tanımasını, onların arasında səmimi münasibətlərin yaradılmasını, həyatın bütün sahələrində dinamik inkişaf haqqında onlara dolğun məlumatların çatdırılmasını, tanınmış siyasətçilərlə görüşlərin təşkil edilməsini, gələcəkdə müxtəlif sahələrdə çalışacaq bu gənclərdə liderlik kimi mühüm xüsusiyyətlərin formalaşdırılmasını təmin etməkdir.***







Ulu öndər Heydər Əliyevin ideyaları Azərbaycanın dünəninin, bu gününün və sabahının əsasıdır. Gənclərə diqqət və qayğı ulu öndər Heydər Əliyevin hakimiyyətinin hər iki dövründə fəaliyyətinin əsas istiqaməti olub. Hələ hakimiyyətinin birinci dövründə Azərbaycanın müstəqil gələcəyini düşünən ümummilli lider Heydər Əliyev gənclərin keçmiş ittifaqın nüfuzlu ali məktəblərində təhsil almasının təşəbbüskarı olub. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonrakı dövrdə də gənclərə diqqət və qayğı dövlət siyasətinin əsas tərkib hissəsinə çevrilib.

Gənclər bu diqqət və qayğıdan bəhrələnərək, öz potensiallarını ortaya qoymalı, Azərbaycanın daha da qüdrətlənməsinə, möhkəmlənməsinə töhfələrini verməlidirlər.

Millət vəkilləri və YAP-ın fəal gənclərinin "Yay məktəbi" layihəsi barədə rəylərini sizə təqdim edirik:

**Milli Məclisin komitə sədri Hadi Rəcəbli:** "Hər il təşkil olunan "Yay məktəbi" layihəsi gənclər tərəfindən böyük maraqla qarşılanır. Mən tez-tez belə seminarlarda oluram və hər il gənclərin daha da inkişaf etdiyini müşahidə edirəm. YAP-ın üzvlərinin 40 faizə qədəri gənclərdən ibarətdir. Heç şübhəsiz ki, gənclərin partiyamıza axınının sürətlənməsində Yeni Azərbaycan Partiyasının sədri, ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu gənclər siyasəti xüsusi əhəmiyyət kəsb edir. Nəticə etibarilə, ümummilli lider Heydər Əliyevin ideyaları əsasında fəaliyyət göstərən Yeni Azərbaycan Partiyasının milli maraqlara əsaslanan siyasi kursu, gənclərə xüsusi diqqət və qayğı göstərməsi və digər məqamlar gənclərin partiyamıza üz tutmasını şərtləndirir. Yeni Azərbaycan Partiyasının, o cümlədən Gənclər Birliyinin özündə yüksək intellektual potensiala malik gəncləri birləşdirməsi ilə yanaşı, partiya strukturlarında gender bərabərliyinin təmin olunduğu da müşahidə edilir. Yüksək intellektual səviyyəyə sahib olan gənc xanımlar partiyamıza üz tutur, bir sıra hallarda onlara yüksək etimad göstərilməsinin nəticəsi olaraq idarəetmə strukturlarında təmsil olunurlar".





**Milli Məclisin deputatı İqbal Məmmədov:** "Azərbaycanda gəncliyin inkişafı ilə bağlı Dövlət proqramları uğurla həyata keçirilir. Bu proqramlar Azərbaycanda gəncliyin inkişafına böyük töhfələr verir. Məqsəd gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etməkdir. Hesab edirəm ki, gənclər öz fəaliyyəti ilə dövlətin onlara göstərdiyi etimadı doğrultmalıdırlar. Sevindirici haldır ki, bugünkü gənclikdə bu etimad görünür".

**Milli Məclisin deputatı Pərvin Kərimzadə:** "Yeni Azərbaycan partiyası gənclərin siyasi fəallığının artırılmasına, asudə vaxtlarının səmərəli təşkilinə, ümumiyyətlə ayrı-ayrı layihələrin həyata keçirilməsinə xüsusi diqqət ayırır. Gəncləri Azərbaycanın gələcəyi kimi dəyərləndirən ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən YAP Sədri, Prezident İlham Əliyev bildirib ki, müasirləşmə, yeniləşmə dövlət siyasətinin düzgün qurulmasında eyni zamanda gənclərin fəaliyyətindən də asılıdır".

**YAP-ın gənc fəalı Fərəh Məcidzadə:** "Artıq bir neçə gündür ki, YAP-ın gəncləri "Relax" istirahət mərkəzində həm istirahət edir, həm də respublikanın müxtəlif rayonlarından olan partiyanın fəalları ilə ünsiyyət qurur, seminarlarda müxtəlif mövzularda müzakirələr aparırlar. "Yay məktəbi" gənclərin bilik və bacarıqlarının artırılması baxımından çox effektiv bir layihədir. Biz burada müxtəlif mövzularda fikir mübadiləsi aparır, təkliflər verir və suallarımıza cavab tapırıq".

*Ardı Səh. 5*





# "Yay məktəbi" layihəsi gənclər tərəfindən böyük maraqla qarşılanır

Əvvəli Səh. 4

**YAP-ın gənc fəalı Lamiyə Hacızadə:** "Yay məktəbi"ndə YAP Səbail rayon təşkilatının fəalı kimi iştirak edir: "Biz bu dilbər guşədə həm istirahət edir, həm də digər iştirakçılarla ünisiyyət yaradırıq. Milli Məclisin deputatları seminnarlarda iştirak edir, suallarımızı cavablandırır, təkliflərimizi dinləyirlər. Biz gənclər təbii, ki onlardan çox şey öyrənir, siyasi və intellekt səviyyəmizi artırırıq".

**YAP-ın gənc fəalı Aliyə Orucova:** "Yay məktəbi" gənclərin maariflənməsi və siyasi biliklərinin artırılması baxımından vacibdir.





Gənclər bir sıra əhəmiyyətli mövzulara toxunaraq ciddi fikir mübadiləsi aparırlar. Bu müzakirələrdə Milli Məclisin deputatları, YAP-ın rayon təşkilatlarının ən fəal üzvləri və digər qonaqlar iştirak edirlər. Eyni zamanda asudə vaxtlarının səmərəli keçirilməsi məqsədi ilə



müxtəlif intellektual oyunlar və idman yarışları keçirilir. Gənclərə belə bir şərait yaratdığı üçün Yeni Azərbaycan Partiyasının rəhbərliyinə təşəkkürümüzü bildiririk".

**YAP Yasamal rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Səlim Rəhimzadə:** "Azərbaycanda gənclər siyasəti həmişə dövlət siyasətinin əsas tərkib hissəsi kimi xüsusi yer tutub. Azərbaycan gəncliyi dövlətin diqqət və qayğısını hər zaman öz üzərində hiss edib. Məhz həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər yetişir. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayır, dövlət idarəçiliyində irəli çəkilirlər. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatının aktiv fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissini artırıb".



**YAP-ın gənc fəalı Ramiz Yusubov:** "Bir neçə il öncə "Yay məktəbi" layihəsində iştirak etmişəm. Hər il gənclərin daha fəal və istəkli olduğunu müşahidə edirəm. Sevindirici haldır ki, burada olan fəallar uzun müddət bir-biri ilə əlaqə saxlayır, sosial şəbəkələrdə aktivlik nümayiş etdirir, partiya və dövlətin maraqlarına uyğun çıxışlar edirlər".



**YAP-ın gənc fəalı Leyla Quluzadə:** "Bu tədbirlər çox yüksək səviyyədə təşkil olunur, gənclər hər zamankından daha fəaldırlar. "Burada olmaq gənclərdə əlavə stimul və həvəs yaradır. Onlar həm əylənir, həm də bilik və bacarıqlarını artırırlar".

**YAP-ın gənc fəalı Namiq Muradov:** "Burada gənclər öz inkişaf səviyyələrini artırmaqla yanaşı, qalıcı dostluq əlaqələri yaradır, Yeni Azərbaycan Partiyasının ətrafında sıx birləşir, partiyamızın uğurlu siyasətinə dəstək nümayiş etdirirlər."

**YAP Səbail rayon təşkilatı Gənclər Birliyinin sədr müavini Fuad Heydərli:** "Burada millət vəkillərimizlə birlikdə səmimi dialoqda olub, öz siyasi biliklərimizi inkişaf etdiririk. Bununla da Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız cənab İlham Əliyev və onun rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası daim gəclərin yanında olduğunu göstərir".



**YAP Suraxanı rayon təşkilatında məsləhətçisi Ənvər Haqverdiyev:** "Artıq bir neçə dəfə yay və qış məktəblərinin iştirakçısı olmuşam. Mənim siyasi sferada gənc kimi inkişafımda məktəblərin əvəzsiz rolu olmuşdur. Nitq, ünsiyyətçilik, özünü ifadə kimi şəxsi qabiliyyətlərimin artırılmasında bu layihələr böyük əhəmiyyətə malikdir. Biz həm dincəlir, həm də müxtəlif təlimlərdə iştirak edirik, eyni zamanda tanınmış siyasi xadimlərlə münasibət qurmaq, onlarla fikir mübadiləsi aparmaq fürsətimiz olur. Bu biz gənclər üçün çox böyük stimuldur".

**YAP Gənclər Birliyinin koordinatoru Aliyə Ağrılı:** "YAP müxtəlif sahələri özündə ehtiva edən, cəmiyyətin bütün təbəqələrini əhatə edən layihələr həyata keçirir: "Təbii ki, bu zaman ölkə gəncliyi unudulmur. Onlara diqqət və qayğı göstərilməsi də YAP-ın fəaliyyətində əsas yerlərdən birini tutur. YAP Gənclər Birliyi tərəfindən artıq bir neçə ildir ki, böyük uğurla davam etdirilən və ölkənin bütün bölgələrindən olan gəncləri əhatə edən "Yay məktəbi" layihəsi ənənəyə çevrilib. Bu layihənin həyata keçirilməsində əsas məqsəd Azərbaycanda yaşayan bütün gənclərin bir-birini daha yaxından tanıması, onlar arasında səmimi münasibətlərin yaradılması, ölkədə ictimai həyatın istənilən sahəsində dinamik inkişaf haqda gənclərə dolğun məlumatların çatdırılması, tanınmış siyasətçilərlə görüşlərin təşkil edilməsi, gənclərin ictimai-siyasi fəallığının artırılması, asudə vaxtın səmərəli təşkili və gələcəkdə müxtəlif sahələrdə çalışacaq gənclərdə liderlik kimi mühüm xüsusiyyətlərin formalaşdırılmasıdır".



# Oğuzda Yeni Azərbaycan Partiyasının "Gənclər liderlər" üçün yay məktəbinin iştirakçıları üçün ekologiya təlimi keçirilib





Oğuzda Yeni Azərbaycan Partiyasının "Gənclər liderlər üçün yay məktəbləri" layihəsi öz işini uğurla davam etdirir. Yay məktəbinin növbəti günü gənclər Oğuz rayonun Xalxal kəndinə səfər ediblər. Burada piknik təşkil edən iştirakçılara ekologiya haqqında təlim keçirilib. Sonra həmin ərazidə iməclik təşkil olunub.

Daha sonra isə "Afra" otelinə qayıdan gənclər arasında "Xəmsə" yarışması keçirilib. Onu da qeyd edək ki, bu layihə çərçivəsində ilk dəfə yay məktəbinin iştirakçıları olan Oğuz və Lerik qrupları canlı yayıma çıxıblar. Gənclər bir birilərinə hazırladıqları fləşmobu təqdim ediblər. Sonda isə isə əyləncəli şou-proqram təşkil olunub.



# Rusiyanın səfiri: "Mən həmişə Azərbaycan mətbuatına açıq olmuşam"

İyulun 11-də Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov bu yaxınlarda Moskvada səfərdə olmuş Azərbaycanın bir sıra aparıcı KİV-lərinin (AZƏRTAC və "Trend" informasiya agentlikləri, "Səs", "İki sahil", "Bakinski raboçiy", "Kaspi", "Xalq qəzeti" və "Bakı xəbər" qəzetlərinin) rəhbərləri ilə görüş keçirib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin rəhbəri, Azərbaycan Respublikasının Prezidenti yanında KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Trend"in baş direktoru İlqar Hüseynov, Azərbaycanın "Novoe Vremya" qəzetinin baş redaktoru Şakir Ağayev, "Bakinski raboçiy" qəzetinin baş redaktoru Rəhman Hacıyev və başqaları Rusiya paytaxtında keçirilən görüşlərlə bağlı təəssüratlarını bölüşüblər. Qeyd olunub ki, səfərin məqsədi rusiyalı həmkarlarla təcrübə mübadiləsi, həmçinin hər iki ölkənin jurnalistlərini narahat edən aktual və mühüm mövzuların müzakirəsi olub.

Vüqar Səfərli vurğulayıb ki, Azərbaycan və Rusiyanın media strukturlarının qarşılıqlı səfərləri ikitərəfli əlaqələrin möhkəmlənməsinə və eyni zamanda, jurnalistlərə öz fəaliyyətini və imkanlarını yenidən nəzərdən keçirməyə imkan verir. O xatırladıb ki, rusiyalı jurnalistləri bu ilin sonunadək Azərbaycana səfər etməyə dəvət edib.

Mətbuatın hökumətlə vətəndaş cəmiyyəti arasına körpü rolu oynadığını qeyd edən nümayəndə heyətinin üzvləri əmin olduqlarını bildiriblər ki, Moskva səfəri iki ölkənin xalalarının bir-birini daha yaxşı tanıması və başa düşməsi, eyni zamanda jurnalist təşkilatları arasında əlaqələrin möhkəmlənməsi baxımından əhəmiyyətlidir.

KİV rəhbərləri rusiyalı həmkarları ilə təcrübə mübadiləsində maraqlı olduqlarını bildiriblər. Burada bir sıra amillər - ortaq dəyərlər, coğrafi yaxınlıq, tarixi əlaqələr mühüm rola malikdir. Vurğulanıb ki, Moskvada keçirilən bütün görüşlərdə Rusiyanın aparıcı informasiya və xəbər agentliklərinin rəhbərləri Azərbaycan haqqında xoş fikirlər səsləndirib və bizim jurnalist strukturları ilə əlaqələri inkişaf etdirməyə hazır olduqlarını bildiriblər.

Çıxış edənlər bildiriblər ki, hazırda Azərbaycanla Rusiya arasında əməkdaşlıq yüksələn xətlə inkişaf edir. Vurğulanıb ki, ölkələrimiz arasında əlaqələrin yüksək səviyyəsinin təmin edilməsində dövlətlərimizin başçılarının böyük rolu var.

Mixail Boçarnikov azərbaycanlı jurnalistlərin Rusiya paytaxtına səfərinin təşkilində göstərdikləri köməyə görə KİV-lərin İnkişafına Dövlət Dəstəyi Fonduna, Azərbaycan Prezidentinin Administrasiyasına, Azərbaycanın Moskvadakı səfirliyinə, xüsusən səfir Polad Bülbüloğluna təşəkkürünü bildirib. Səfir Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq səviyyəsində əlaqələrin yüksək səviyyəsindən məmnunluğunu ifadə edib, mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma zəminində münasibətlərin bütün sahələr üzrə möhkəmləndiyini qeyd edib. O xatırladıb ki, ölkəmizdə səfir kimi fəaliyyət göstərdiyi cəmi bir il ərzində həmişə Azərbaycan mətbuatına açıq olub.

Səmimi və dostluq şəraitində keçən görüşdə Azərbaycan və Rusiyanın media strukturları arasında əməkdaşlığın möhkəmlənməsi və dərinləşməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Görüşün sonunda xatirə fotosu çəkilib.

# Türkiyəli nazir müavini: "UNESKO-nun Şəki barədə tarixi qərarını böyük sevinc hissi ilə qarşıladıq"



Azərbaycanın hər bir uğuru Türkiyə ictimaiyyətinin misilsiz sevincinə səbəb olur. "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" adlı nominasiyasının UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi barədə tarixi qərarı da böyük məhəbbətlə qarşıladıq. Bu fikri AZƏRTAC-a açıqlamasında Türkiyənin Mədəniyyət və turizm nazirinin müavini Sərdar Çam söyləyib.

Bu nailiyyəti bütün türkdilli ölkələr üçün əlamətdar hadisə kimi dəyərləndirən nazir müavini deyib: "Azərbaycan tarixi və müasir mədəniyyətinin özəllikləri ilə türk dünyasında seçildiyi kimi Şəki də özünəməxsus dəyərləri ilə Azərbaycanda seçilməkdədir. Şəki əhalisinin əlamətdar xüsusiyyətləri, insanların nadir danışıq tərzi, o cümlədən bölgənin zəngin mətbəxi ayrı-ayrılıqda dəyərli mədəniyyət nümunələridir. Şəkinin pitisi və paxlavası bu torpağa ayaq basan hər kəsə Azərbaycanı sevdirən təamlardır. Təbii ki, bölgənin qədim tarixi, təbii və qazanılmış abidələri təkrarolunmaz bir mirasdır".

Nazir müavini Sərdar Çam əminliklə bildirib ki, "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi Azərbaycana böyük uğurlar qazandıracaq.

# "UNESKO-nun 44-cü sessiyasında yeni nominasiyalarımızın siyahıya salınması üçün iddia qaldıracağıq"

"UNESKO-nun Çində keçiriləcək növbəti sessiyasında yeni nominasiyalarımızın Dünya İrs Siyahısına salınması üçün iddia qaldıracağıq." Bunu Mədəniyyət naziri Əbülfəs Qarayev UNESKO-nun Ümumdünya İrs Komitəsinin Bakıda keçirilən 43-cü sessiyasının yekunları ilə bağlı mətbuat konfransında bildirib.

Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzinin UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsinin ölkəmiz üçün böyük uğur olduğunu söyləyən nazir deyib: "Fəxr etməliyik ki, siyahıya daxil edilən mədəni irs nümunələrimizin sayı üçə çatıb". Bu prosesin asan başa gəlmədiyini qeyd edən nazir bildirib ki, altı ildir Azərbaycandan ekspertlər bu sənədi hazırlayaraq müvafiq beynəlxalq təşkilatlara təqdim edib. İlkin mərhələdə onların təhlili kifayət qədər müsbət olmayıb. Lakin Azərbaycanın gətirdiyi sübutlar və dövlətimizin başçısının məsələ ilə bağlı imzaladığı müvafiq Sərəncamın icrası bu qərarın verilməsində müsbət rol oynayıb.

# Damir Muxetdinov: "Bakı Qafqazda İslam mədəniyyətinin, elminin və təhsilinin mərkəzinə çevrilib"

Bu gün Bakıda Qafqazın və Avrasiyanın aparıcı islamşünas alimləri və mütəxəssisləri toplaşıblar. Son illərdə Bakı Qafqazda İslam mədəniyyətinin, elminin, təhsilinin mərkəzinə çevrilib. Bu fikri AZƏRTAC-a müsahibəsində Rusiyanın Moskva İslam İnstitutunun rektoru, professor Damir Muxetdinov deyib. O bildirib ki, regionda İslamın yayılmasına cənubi Qafqazdan başlanılıb. İlk olaraq Şamaxı, Dərbənd kimi tarixi şəhərlərdə İslam qəbul olunub və buradan Rusiyaya yayılıb. Rusiya müsəlmanları Qafqazla,



Azərbaycanla dərin köklərlə bağlıdırlar. Hacı Zeynalabdin Tağıyev, Şəmsi Əsədullayev və digər azərbaycanlı mesenatlar Rusiya müsəlmanları üçün məktəblər açıb, mərkəzlər, dərnəklər yaradıb, jurnallar, qəzetlər çap ediblər. İllər keçməsinə baxmayaraq Azərbaycanda bu ənənə hələ də davam edir. Bakı regionda İslamın əlaqələndirici mərkəzi rolunu oynayır. "İslam sivilizasiyası Qafqazda" II Beynəlxalq Simpoziumu bunu bir daha sübut edir.

# XİN: "Azərbaycan Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi məsələsini hər zaman diqqət mərkəzində saxlayır"

***Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin mətbuat xidməti soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin Ermənistan tərəfindən girov götürülməsinin beşinci ildönümü ilə bağlı açıqlama yayıb.***

Bu barədə AZƏRTAC-a XİN-in mətbuat xidmətindən məlumat verilib. Açıqlamada deyilir: Bu gün azərbaycanlı mülki şəxslər Dilqəm Əsgərov və Şahbaz Quliyevin Ermənistan tərəfindən girovluqda saxlanılmasının beş ili tamam olur.

D.Əsgərov və Ş.Quliyev ölkəmizin Ermənistan tərəfindən işğal edilmiş Kəlbəcər rayonunda valideynlərinin məzarlarını ziyarət edərkən Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülüb, onların yanında olan Həsən Həsənov isə qətlə yetirilib. Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış oyuncaq separatçı rejim tərəfindən uydurma iddialar əsasında mülki şəxslərimiz üzərində quruma "məhkəmə" təşkil edilərək, D.Əsgərov "ömürlük", Ş.Quliyev isə 22 il müddətinə azadlıqdan məhrum edilib.

Bu iki azərbaycanlı mülki şəxsin Ermənistan girovluğunda keçən hər bir günü işgəncə altında keçən növbəti bir gündür. D.Əsgərov və Ş.Quliyevin girov götürülməsindən əvvəlki və sonrakı görüntüləri onların girovluqda saxlandıqları müddətdə qeyri-insani rəftara, fiziki və mənəvi işgəncələrə məruz qaldığını açıq şəkildə sübut edir.

Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzü nəticəsində ölkəmizin Dağlıq Qarabağ və ətraf yeddi rayonu işğal olunub. İşğal edilmiş ərazilərdə etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı, o cümlədən D.Əsgərov və Ş.Quliyevin də ailə üzvləri öz doğma yurd-yuvalarından, mülklərindən didərgin salınıb.

Beynəlxalq hüququn imperativ norma və prinsiplərinə görə güc tətbiqi və ya güc təhdidi vasitəsilə ərazilərin əldə edilməsi heç bir halda qanuni hesab oluna bilməz. Bu prinsip Ermənistan-



Azərbaycan münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874, 884 saylı qətnamələrində bir daha təsdiq olunur. BMT Təhlükəsizlik Şurasının qətnamələrində işğalçı qüvvələrin Azərbaycanın bütün işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb olunur, həmçinin münaqişənin həllinin beynəlxalq humanitar hüquqi əsasları müəyyən olunaraq, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması hüququ təsbit olunur.

Beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə zidd olaraq Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzkar siyasətinin başladığı vaxtdan bu günədək münaqişə nəticəsində 3888 Azərbaycan vətəndaşı itkin düşüb, onlardan 718-i mülki şəxslərdir, o cümlədən 266 qadın, 71 uşaq və 326 yaşlı şəxs itkin düşmüş mülki vətəndaşlarımız sırasındadır.

Ermənistan mülki şəxslərin girov götürülməsini qadağan edən və hərbi münaqişələr zamanı mülki şəxslərə münasibətdə humanist davranış tələb edən 1949-cu il Cenevrə konvensiyaları və onların Əlavə protokollarının müddəalarına zidd olaraq, beynəlxalq səviyyədə üzərinə götürdüyü öhdəliklərini kobud şəkildə pozmaqda davam edir və Azərbaycan tərəfinin humanitar hüquq normalarına əməl olunmasına və hər iki tərəfdə saxlanılmış mülki şəxslərin "hamının hamıya" prinsipi əsasında tez bir zamanda qarşılıqlı surətdə azad edilməsinə dair çağırışlarına məhəl qoymur.

Ermənistan tərəfindən qeyri-insani davranış nümayiş etdirilərək beş il ərzində ağır şərtlər altında D.Əsgərov və Ş.Quliyevin girovluqda saxlanılması və digər bu xüsusda olan əməlləri münaqişənin danışıqlar yolu ilə həllinə ciddi zərbə vurur və gərginliyin daha da artmasına xidmət edir. Əgər Ermənistan tərəfi, dəfələrlə bəyan etdiyi kimi, "münaqişənin yalnız sülh yolu ilə həlli üçün müvafiq şəraitin yaradılmasına" həqiqətən də nail olmaq istəyirsə, o zaman qanunsuz şəkildə girovluqda saxladığı Azərbaycanın mülki şəxslərinin azad olunması istiqamətində addımlar atmalıdır.

Xatırladırıq ki, Avropa İnsan Hüquqları Məhkəməsi "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə işğalçı tərəf kimi Ermənistanın məsuliyyətini müəyyən etməklə yanaşı, azərbaycanlı məcburi köçkünlərin öz evlərinə və ya daimi yaşayış yerlərinə qayıtmaq hüququnu bir daha təsdiq edib, mülk və əmlakın qaytarılması ilə əlaqədar hüquqi və texniki məsələlərlə bağlı beynəlxalq humanitar hüquq və insan hüquqlarının müvafiq standart və prinsiplərinin şamil edilməli olduğunu təsbit edib. Məhkəmənin qərarının 195-ci paraqrafında göstərildiyi kimi, hazırkı şəraitdə azərbaycanlıların öz evlərinə qayıtmasına başlıca əngəl Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdə davam edən mövcudluğu və atəşkəsin pozulmasıdır.

Girovluqda olan soydaşlarımızın tezliklə azad edilməsi və ailə üzvlərinə qovuşması üçün ali humanizm prinsiplərini rəhbər tutaraq bütün beynəlxalq ictimaiyyəti, xüsusilə ATƏT-in Minsk qrupunun həmsədr ölkələrini, aidiyyəti beynəlxalq təşkilatları və qeyri-hökumət təşkilatlarını Ermənistana ciddi təsir və təzyiq göstərməyə çağırırıq.

Azərbaycan D.Əsgərov və Ş.Quliyevin azad edilməsi məsələsini hər zaman diqqət mərkəzində saxlayır və mülki şəxslərimizin azad olunması üçün zəruri tədbirlər bundan sonra da davam etdiriləcək".

# Prezident bu tanınmışları yubiley medalı ilə təltif edib

"Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev də "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunanlar sırasındadır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamla bir çox tanınmış media və QHT nümayəndələri, ictimai xadimlər, tarixçi alimlər "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunublar.

SİA xəbər verir ki, onların arasında REAL TV-nin Baş direktoru Mir Şahinin, "Şərq" qəzetinin Baş redaktoru Akif Aşırlının, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyevin, Xalq şairi Sabir Rüstəmxanlının, görkəmli tarixçi alimlər - Boran Əzizin, Anar İsgəndərovun, Firdovsiyyə Əhmədovanın, Nəsiman Yaqublunun, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyevin, Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin sədri Rufiz Qonaqovun, tanınmış analitik Elçin Mirzəbəylininin, Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) sədri, Mətbuat Şurası sədrinin müavini Umud Mirzəyevin, "525-ci qəzeti"n Baş redaktoru Rəşad Məcidin, Mətbuat Şurasının İdarə Heyətinin üzvü Azər Həsrətin, "APA Holding"-in rəhbəri Vüsalə Mahirqızının, Milli QHT Forumunun (MQF) prezidenti Rauf Zeyninin, QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyevin, Məhəmməd Əmin Rəsulzadənin nəvəsi Rəis Rəsulzadənin, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyevin, filologiya üzrə fəlsəfə doktoru Ədalət Tahirzadənin də adları var.

## "Azərbaycan mühüm görüşlər üçün ən təhlükəsiz məkanlardan biridir"



"NATO ilə Rusiya arasında danışıqların aparılması üçün məkan üçün Azərbaycanın seçilməsi ilk hadisə deyil. Bilirsiniz ki, bundan öncə də ölkəmizdə generalların görüşü keçirilib". Bu fikirləri SİA-ya açıqlamasında politoloq, sabiq diplomat Fikrət Sadıqov deyib. Tərəflərin danışıqlar aparması üçün Azərbaycanı seçməsinin bir neçə məqamını açıqlayan politoloq söyləyib ki, Bakı artıq sabitlik və stabillik məkanına çevrilib.

F. Sadıqov söyləyib ki, Azərbaycanda nəinki ikitərəfli görüşlər, həm müxtəlif sahələri əhatə edən iri miqyaslı beynəlxalq tədbirlər, müxtəlif idman yarışları həyata keçirilir: "Artıq bütün dünya ölkələri anlayır ki, Azərbaycan bu kimi görüş və tədbirlərin keçirilməsi üçün ən təhlükəsiz məkanlardan biridir. Ölkəmizdə istənilən mövzularla bağlı danışıqların aparılması mümkündür".

# Milli Məclisin ATƏT PA-da nümayəndə heyəti Lüksemburqda "Qarabağ" Azərbaycan-Lüksemburq Mədəniyyət Assosiasiyasında olub

***Lüksemburqda Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (ATƏT PA) 28-ci sessiyasının işində iştirak etmiş Bahar Muradova, Azay Quliyev, Tahir Mirkişili, Ülviyyə Ağayeva, Kamran Nəbizadə və Elşad Həsənovun daxil olduqları Azərbaycan Milli Məclisinin nümayəndə heyəti Lüksemburqda "Qarabağ" Azərbaycan-Lüksemburq Mədəniyyət Assosiasiyasında olub. AZƏRTAC xəbər verir ki, qonaqlara Mərkəzin gözəl tərtib olunmuş və Azərbaycan rəssamlarının və heykəltəraşlarının əsərləri, çap materialları, milli geyimdə olan manekenlər qoyulmuş binası göstərilib.***

Assosiasiyanın üzvləri azərbaycanlı deputatlara təmsil etdikləri diaspor təşkilatının fəaliyyəti haqqında məlumat veriblər və öz tarixi Vətənlərinin naminə apardıqları işi davam etdirmək arzusunu və əzmini ifadə ediblər.

ATƏT PA-da Azərbaycan nümayəndə heyətinin başçısı, Milli Məclisin vitse-spikeri, eyni zamanda Dünya Azərbaycanlıları Əlaqələndirmə Şurasının üzvü olan Bahar Muradova soydaşlarımıza göstərdikləri vətənpərvərliyə və çoxşaxəli fəaliyyətə görə təşəkkür edib, bu təşkilata hərtərəfli kömək və dəstək göstərməyə hazır olduğunu bildirib. O, Lüksemburqdakı Azərbaycan diasporunun fəalları ilə bu ölkənin siyasətçiləri, xüsusən Hersoqluğun qanunverici orqanının deputatları arasında əlaqələrin genişləndirilməsinin vacib olduğunu qeyd edib. Vitse-spiker



deyib: "Başa çatan sessiya bunun necə mühüm olduğunu göstərdi. Lüksemburq təkcə Aİ-də deyil, həm də ATƏT-də mühüm dövlətdir və lüksemburqlu həmkarlarımızın sessiyalarda necə səs verməsi də bizim üçün əhəmiyyətlidir".

Deputat Azay Quliyev də Assosiasiyanın rəhbərlərinə Vətən naminə fəaliyyətlərinə görə təşəkkürünü bildirib. O, xalq və diaspor səviyyələrində yaradılan əlaqələrin Azərbaycan dövlətinin uğurları barədə düzgün informasiyaların, ölkəmizin bugünkü reallıqlarının avropalılara çatdırılmasında böyük əhəmiyyətini vurğulayıb.

Lüksemburqda tanınmış şəxsiyyət və ölkəmizin həqiqi dostu xanım Lea Linsterin rəhbərlik etdiyi "Qarabağ" Azərbaycan-Lüksemburq Mədəniyyət Assosiasiyası 2011-ci ildən Lüksemburq ictimaiyyəti üçün maarifləndirici iş aparır, Azərbaycanın zəngin mədəniyyətini, qədim tarixini və ənənələrini təbliğ edir, müxtəlif sahələrdə dostluq əlaqələrinin və ikitərəfli əməkdaşlığın inkişafına kömək edir. Bu təşkilatın yüzə yaxın üzvü var və onların əksəriyyəti lüksemburqlulardır. Assosiasiya hər il Azərbaycan rəssamlarının və heykəltəraşlarının sərgilərini, musiqiçilərin və rəqs qruplarının konsertlərini təşkil edir, filmlər nümayiş etdirir. Bundan başqa, bu təşkilat illik beynəlxalq yarmarkada da iştirak edir. Heydər Əliyev Fondu Assosiasiyaya kömək məqsədilə çoxlu sayda kitab, jurnal və kompakt-disklər göndərib. 2014-cü ildə Assosiasiyanın evi olan "Qarabağ" Mərkəzinin açılışı olub. Qeyd etmək lazımdır ki, Mərkəz Lüksemburqun mərkəzində yerləşir.

# MÖHTƏŞƏM ƏLLİ İL

## HEYDƏR ƏLİYEV EPOXASINDAN İLHAM ƏLİYEV ERASINA

***Məlum olduğu kimi, bəşəriyyət bütün tarixi boyu dahilərin çiyinləri üstündə irəliyə doğru inkişaf etmişdir. Böyük dühalar mənsub olduqları ölkənin gələcək inkişaf yollarını əvvəlcədən görə bilmiş, həmin ali məqsədə çatdırmaq üçün xalqı mübarizəyə səfərbər etməyi bacarmış, ən çətin ictimai-siyasi proseslərə rəhbərlik etmək missiyasını uğurla həyata keçirmişlər. Uzaqgörənlik, möhkəm siyasi iradə, aydın milli mövqe və dönməz mübarizə əzmi belə tarixi şəxsiyyətlərin əsas xüsusiyyətlərini təşkil edir. Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizin taleyində və inkişafında müstəsna dərəcədə böyük rolu və xidmətləri olan qüdrətli tarixi şəxsiyyətdir. Azərbaycan Respublikasının 50 illik böyük bir inkişaf dövrü Ulu Öndər Heydər Əliyevin adı, rəhbərliyi, mübarizəsi və dövlətçilik idealları ilə üzvi surətdə əlaqədardır. Heydər Əliyev Azərbaycan xalqının əbədiyaşar Ümummilli Lideri və müstəqil dövlətçiliyinin rəmzidir.***

Görkəmli dövlət xadimi Heydər Əliyev 14 iyul 1969-cu il tarixdə Azərbaycan Respublikasında dövlət rəhbərliyinə başlamışdır. Bu tarix Azərbaycan Respublikasının taleyində böyük dönüşün və yeni bir epoxanın başlanğıcı olmuşdur. Azərbaycanda böyük inkişaf və intibah həmin şərəfli tarixdən başlanmışdır. Xalqın və ölkənin taleyindəki roluna və əhəmiyyətinə görə 14 iyul 1969-cu il tarixi yalnız 15 iyun 1993-cü il tarixi ilə müqayisə oluna bilər. Birmənalı şəkildə demək olar ki, 14 iyul 1969-cu il 15 iyun 1993-cü ilin möhkəm təməlidir. 14 iyul 1969-cu il hadisəsi Azərbaycan xalqını iqtisadi-mədəni geriliкdən, o vaxta qədərki torpaqlarımızı itirilmə təhlükəsindən xilas etmiş, ərazi bütövlüyümüzə təminat vermiş, ölkəmizin hərtərəfli inkişafının hərəkətverici qüvvəsinə çevrilmişdir. Bu mənada, 14 iyul 1969-cu il Azərbaycanın salnaməsinə tarixi dönüş ili kimi daxil olmuşdur. Tarixi Dönüş ili Milli Qurtuluş ilinin bünövrəsidir. Tarixi Dönüş ilində Azərbaycanda tarixin axarı dəyişdirilərək, iqtisadi-mədəni gerilikdən böyük inkişafa doğru qəti dönüş etmişdir. Milli Qurtuluş ili də Azərbaycan tarixinin dönüş ilidir. Məhz 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası real parçalanma və vətəndaş müharibəsi təhlükəsindən xilas olaraq, müstəqil dövlətçiliyin möhkəmləndirilməsinə doğru dönüş etmişdir. 15 iyun Milli Qurtuluş hadisəsi olmasa idi, ölkəmizdə hansı fəlakət baş verərdisə, 14 iyul hadisəsi də olmasa idi, xalqımızın gerilikdən, tənəzzüldən və böhrandan xilas olması mümkün olmayacaqdı. Beləliklə, 14 iyul ölkəmizdə Böyük tarixi Dönüşün parolудur. Eyni zamanda, 15 iyun da Azərbaycanda müstəqil dövlətçiliyin əbədi məşəlidir. İnkişaf etmiş Azərbaycan 14 iyul 1969-cu ilin övladıdır. Həmçinin, müstəqil Azərbaycan 15 iyunun yetirməsidir. 14 iyul 1969-cu il Azərbaycan dövlətçiliyinin simasında Heydər Əliyev dühasının doğuluşu, 15 iyun 1993-cü il görkəmli dövlət xadiminin müstəqil Azərbaycanda yenidən böyük siyasətə Qayıdışının tarixi faktıdır.



*İsa HƏBİBBƏYLİ, AMEA-nın vitse-prezidenti, Milli Məclisin Elm və Təhsil Komitəsinin sədri, akademik*

Azərbaycan Respublikasının gələcək taleyində ölkə kommunistlərinin 5 Avqust 1969-cu il Plenumu böyük tarixi hadisədir. Həyati gerçəklikləri, xüsusən də, sovet dövründə ənənəsi olmayan cəmiyyətdəki nöqsanların və çatışmazlıqların açıq surətdə bəyan edilməsi və çıxış yollarının göstərilməsi 5 Avqust Plenumunun keçmiş sovet dövlətinin ictimai-siyasi gedişatında fərqli bir baxışın ifadəsi olduğunu göstərir. 5 Avqust Plenumu Azərbaycan Sovet Respublikasının rəhbəri Heydər Əliyevin dövlətçilik strategiyasının uzunmüddətli möhtəşəm proqramıdır. 5 Avqust Plenumunun siyasi qərarları Sovet Azərbaycanının inkişafını və müstəqilliyə doğru inkişafının strategiyasını müəyyən etmişdir. Azərbaycan ölkəsi inkişafın sonrakı bütün mərhələlərində həmin strategiyanın işığında inamla irəliyə doğru yol gedərək çətinlikləri dəf etmiş, böyük tərəqqi və yüksəlişə nail olmuşdur.

Eyni zamanda, Ulu Öndər Heydər Əliyevin şəxsi taleyində də 14 iyul 1969-cu ildə mühüm bir tarixi dönüş baş vermişdir. O, məhz həmin tarixi hadisə ilə dövlət təhlükəsizliyi orqanlarından, geniş mənada, dövlət idarəetməsinə keçmiş və ölkə miqyaslı liderə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyev sovet hakimiyyəti illərində - 1969-1982-ci illərdə Azərbaycan Respublikasını keçmiş Sovetlər İttifaqındakı müttəfiq respublikalar arasındakı axırıncı yerlərdən ən qabaqcıl mövqeyə yüksəltmişdir. Həmin dövrdə ölkədə bütün sahələr: kənd təsərrüfatı, sənaye, nəqliyyat, elm, təhsil, mədəniyyət, ədəbiyyat və incəsənət, səhiyyə, rabitə... sürətlə inkişaf etdirilmiş, Azərbaycanda böyük intibah baş vermişdi. Ulu Öndər Heydər Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi düşünülmüş tədbirlər Azərbaycanın müstəqilliyində mühüm rol oynamışdır.

Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində və Siyasi Büronun üzvü kimi 1982-1986-cı illərdəki çoxcəhətli və səmərəli fəaliyyəti bu böyük siyasətçini dünya miqyasında əsl rəhbər şəxsiyyət kimi tanıtmışdır. Sovetlər İttifaqı miqyasında ən məsuliyyətli qərarların qəbul edilməsində Ulu Öndər Heydər Əliyev obyektivlik və uzaqgörənlik nümayiş etdirmiş, ölkədə gedən proseslərin ümumi inkişafa, çoxmillətli dövlətdə yaşayan xalqların maraqlarına və rifahına xidmət etməsinə xüsusi diqqət yetirmişdir.

Ulu Öndər Heydər Əliyevin həyatı və fəaliyyətinin Naxçıvan dövrü (1990-1993-cü illər) çətin və keşməkeşli bir tarixi mərhələ olmaqla bərabər, həm də Naxçıvanda xilaskarlıq missiyası həyata keçirməsi və dövlət müstəqilliyi uğrunda mübarizə illəri kimi Azərbaycan tarixinə daxil olmuşdur. Həyatı və fəaliyyətinin Naxçıvan mərhələsi Heydər Əliyevin müstəqillik dövrünün liderliyi mərhələsinin böyük başlanğıcıdır. Hələ sovet hakimiyyəti illərində ölkəmizi fərqli bir istiqamətdə inkişaf etdirərək, çətin şəraitdə milli mədəniyyəti və ədəbiyyatı, mənəvi dəyərləri dirçəltməyə, ictimai-tarixi dərketmə şüurunu oyatmağa nail olmağı bacarmış Heydər Əliyev taleyin hökmü ilə yaşayıb-işləməli olduğu Naxçıvan Muxtar Respublikasındakı fəaliyyəti ilə xalqın və ölkəsinin əsl lideri olduğunu bir daha isbat etimşdir. Üçrəngli Azərbaycan bayrağının ölkəmizin dövlət rəmzlərindən biri kimi qəbul edilməsi, SSRİ-nin saxlanılması məqsədi daşıyan referendumda Naxçıvan Muxtar Respublikasının iştirak etməməsinə nail olması, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün təsis edilməsi haqqında Sərəncam verməsi Naxçıvan mərhələsinin ölkə miqyaslı hadisələrlə zəngin olduğunu nümayiş etdirir.

Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə yenidən Azərbaycan rəhbərliyinə qayıdışı və 1993-2003-cü illərdə müstəqil Azərbaycan Respublikasına rəhbərlik edərək, ölkəni dərin siyasi-iqtisadi böhrandan çıxarması, cəmiyyətin bütün sahələrində geniş islahatları uğurla həyata keçirərək böyük dönüşə və dirçəlişə nail olması Onun xalqı və ölkəsi qarşısındakı tarixi xidmətidir. "Əsrin müqaviləsi"nin dahi müəllifi olan Heydər Əliyev əsrin əfsanəsinə çevrilmişdir. Müstəqillik dövründə ölkəmizi Avropa Şurasının miqyasına çıxarması sovet dövründə respublikanı Siyasi Büro səviyyəsinə çatdırması kimi şərəfli bir xidmətdir. Sözün əsl mənasında, Heydər Əliyev Azərbaycan xalqının xilaskarı, müstəqil Azərbaycan ölkəsinin böyük qurucusudur. Uzaqgörən dövlət rəhbəri kimi Heydər Əliyev özündən sonrakı böyük gələcəyin də möhkəm təməllərini yaratmışdır. O, azərbaycançılığı dövlət ideologiyası kimi qəbul etdirməklə ölkəmizdə dövlətçilik maraqları ilə milli mənafelərin tarazlığına və vəhdətinə nail olmuşdur.

Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev XX əsrin ikinci yarısından etibarən həm sovet dövründə, həm də müstəqillik mərhələsində mənsub olduğu xalqın tarixi müqəddəratında həlledici rol oynamış və dünyanın böyük liderlərindən biri kimi böyük şöhrət qazanmışdır. O, hələ sovet hakimiyyəti illərində Azərbaycan xalqının milli mənafelərinin qorunub-saxlanılması və inkişaf etdirilməsi üçün qətiyyətli addımlar atmışdır. Ulu Öndər Heydər Əliyev sovet dövründə Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldıran görkəmli siyasi xadimdir. Məhz Onun xidmətləri sayəsində Azərbaycan keçmiş Sovetlər İttifaqında hərtərəfli şəkildə inkişaf etmiş ölkələrdən birinə çevrilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin qurulması və möhkəmləndirilməsi də Heydər Əliyevin adı və mübarizəsi ilə üzvi surətdə bağlıdır. Bütün bunlara görə Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideri kimi böyük tarixi ad qazanmışdır.

Heydər Əliyev - Azərbaycan xalqının böyük dövlətçilik istedadına və zəngin idarəçilik təcrübəsinə malik olan nadir tarixi şəxsiyyətidir, xalqın və ölkənin taleyində xüsusi rolu olan görkəmli dövlət xadimidir, xilaskarlıq missiyasını həyata keçirmiş qüdrətli tarixi şəxsiyyətidir.

Heydər Əliyev - Azərbaycanda dövlət müstəqilliyinin banisidir. Cəmiyyət həyatının bütün sahələrini əhatə etmiş böyük xidmətləri Onun adını Azərbaycan dövlətinin tarixinə əbədi olaraq həkk etmişdir. Müstəqil dövlətin siyasi prioritetlərinin önə çıxarılması, yeni idarəetmə strukturunun formalaşdırılması, daxili sabitliyin yaradılması, beynəlxalq aləmdə dostlar və tərəfdaşların tapılması, iqtisadi sahədə islahatların həyata keçirilməsi, dövlət ideologiyasının formalaşdırılması Ulu Öndər Heydər Əliyevin həll etdiyi ümumdövlət miqyaslı vəzifələrdir. Dövlətçilik baxımından mühüm əhəmiyyətə malik olan həmin vəzifələrin sırasında azərbaycançılıq ideologiyası, ədəbiyyat siyasəti, elm və təhsil konsepsiyası mühüm yer tutur.

Beləliklə, Azərbaycanda 1969-2003-cü illəri əhatə edən 35 ilə yaxın tarixi bir dövr Azərbaycan tarixinin Heydər Əliyev epoxası dövrüdür. Azərbaycanın dövlət müstəqilliyi ideyasının hazırlanması, inkişaf etdirilərək həyata keçirilməsi və qurulub daha da möhkəmləndirilməsi Heydər Əliyev epoxasının tarixi nailiyyətidir.

Böyük dövlət xadimi Heydər Əliyev üçün ədəbiyyat və incəsənət azərbaycançılığın, milli şüurun inkişaf etdirilməsinin əsas hərəkətverici qüvvəsi funksiyasını daşımışdır. Ulu Öndər Heydər Əliyev dövlət rəhbərliyinin bütün mərhələlərində ədəbiyyat və incəsənət məsələlərinə xüsusi əhəmiyyət vermişdir. O, uzaqgörən görkəmli dövlət xadimi kimi, həm Azərbaycan ədəbiyyatının inkişaf etdirilməsinə böyük qayğı göstərmiş, həm də bu mühüm sahələri istiqamətləndirmişdir. Heydər Əliyevin aşağıdakı sözləri Onun ədəbiyyata dərindən bələd olması ilə yanaşı, həm də cəmiyyətin inkişaf etdirilməsində bu mühüm işə nə qədər dərindən əhəmiyyət verdiyini göstərməkdədir: "Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini əbədiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün

# MÖHTƏŞƏM ƏLLİ İL

## HEYDƏR ƏLİYEV EPOXASINDAN İLHAM ƏLİYEV ERASINA

əzəməti ilə açmışdır".

Ədəbiyyata xalqın taleyinin və tarixi yaddaşının əks-sədası kimi baxan Ulu Öndər Heydər Əliyev bədii düşüncədə tarixilik, millilik və müasirlik prinsiplərinə xüsusi əhəmiyyət vermişdir. Bu prinsiplər Ulu Öndər Heydər Əliyevin ədəbiyyat və incəsənət siyasətinin konseptual əsaslarını təşkil etmişdir. Azərbaycan ədəbiyyatının böyük klassiklərinin və görkəmli yaradıcılarının dövlət səviyyəsində yubileylərinin keçirilməsi, əsərlərinin nəşri, dünya dillərinə tərcümə olunması, tamaşaya qoyulması, geniş mənada, milli-mənəvi özünüdərk proseslərinin genişlənməsinə, azərbaycançılıq anlayışının daha da möhkəmləndirilməsinə xidmət etmişdir. "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyi beynəlxalq aləmdə böyük əks-səda doğuran mühüm ədəbi-mədəni hadisə olmuşdur. Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi münasibəti ilə görkəmli dövlət xadimi Heydər Əliyevin bəyan etdiyi aşağıdakı sözlər müstəqil Azərbaycan dövlətinin ədəbiyyat və incəsənət siyasətinin əsasını təşkil edir: "Bu yubileyi keçirərkən biz xalqımızın özünü tanımasını təmin edəcəyik və etməliyik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Şübhəsiz ki, bu yubileyin keçirilməsi indiki nəslin ... tariximizin nə qədər zəngin olduğunu və Azərbaycan xalqının dünya mədəniyyətinə necə töhfələr verdiyini dərk etməsinə şərait yaradacaq və hər bir azərbaycanlıda, ilk növbədə, gənc nəsildə milli iftixar, vətənpərvərlik hisslərini daha da yüksəldəcəkdir. Bunun özü müstəqil Azərbaycanda bizim üçün çox gərəkli bir amildir".

Görkəmli Azərbaycan yazıçı və şairlərindən Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rüstəm, Süleyman Rəhimov, böyük incəsənət xadimlərindən Qara Qarayev, Müslüm Maqomayev, Rəşid Behbudov, Fikrət Əmirov və Tahir Salahova Sovetlər İttifaqının ən ali mükafatı olan Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi Azərbaycan tarixinin Heydər Əliyev epoxasının parlaq hadisəsidir.

Ulu Öndər Heydər Əliyev Azərbaycanın bədii mədəniyyətinin, ədəbiyyatının və incəsənətinin qüdrətli bilicisi və vurğunu idi. O, ədəbiyyatı, təsviri sənəti və xalq yaradıcılığını çox sevirdi. Azərbaycanın tanınmış yazıçı və



şairləri, rəssamları, heykəltəraşları, memarları, istedadlı xalça ustaları Onun ən çox qiymətləndirdiyi sənətkarlar cərgəsində xüsusi yer tuturdu. Bu bağlılıq təsadüfi olmayıb, Ulu Öndərin böyük Vətən sevgisinin, azərbaycançı baxışlarının parlaq təzahürü idi. Ulu Öndərin görkəmli Azərbaycan yazıçılarından Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza Ulutürk, Anar, Fikrət Qoca, Sabir Rüstəmxanlı və başqalarına göstərdiyi böyük diqqət və bir çox hallarda, onları xüsusi çətinliklərdən xilas etməsi bu yaradıcı ziyalılara göstərilən ehtiramdan başqa, həm də ölkəmizdə milli şüurun, müstəqillik idealının formalaşdırılmasına, müdafiə olunmasına dəstəyin ifadəsi idi. Böyük dövlət xadiminin Azərbaycan rəssamlarından Tahir Salahov, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov, Maral Rəhmanzadə, Oqtay Sadıqzadə, heykəltəraşlardan Ömər Eldarov, Tokay Məmmədov, Mirəli Mirqasımov, xalçaçı sənətkarlardan Lətif Kərimov, Kamil Əliyev və başqalarının yaradıcılıq fəaliyyətinə bəslədiyi münasibət tarixi hadisələrə çevrilmişdir. Ulu Öndər Heydər Əliyevin təsviri sənət əsərləri haqqındakı təcrübəli ustad sənətşünas kimi dəqiq mülahizələri, elmi-nəzəri təhlilləri daim sənət adamlarını heyrətləndirmişdir. Ulu Öndər milyonlarla insanın qəlbində yaşadığı kimi, rəssam və heykəltəraşlarımızın da yaddaşında unudulmaz işıqlı izlər qoymuşdur. Ona görə də, sənətkarlarımız daim Heydər Əliyev mövzusuna müraciət edir, xüsusi bir sevgi ilə bu dahi insanın kamil obrazını yaradırlar. Azərbaycan incəsənətində Heydər Əliyevin obrazını yaradan sənətkarlardan Tahir Salahov, Ömər Eldarov, Oqtay Sadıqzadə, Kamil Əliyev, Eldar Mikayılzadə, Hüseynqulu Əliyev, Ülviyyə Həmzəyeva, Natiq Əliyev, Akif Əsgərov, İlham Mirzəyev, Həbibə Allahverdiyeva, Cavid İsmayılov, Həmzə Sadıqov, Eldar Zeynalov, Məmməd İbrahimov və bir çox başqalarının yaratdıqları möhtəşəm heykəllər və çəkdikləri bənzərsiz rəsm əsərləri yaddaşlara yazılmışdır. Bu əsərlərdən hər biri Ulu Öndərin bədii obrazını yeni-yeni fərqli təcəssüm formalarında əks etdirir. Bu da çox əhəmiyyətlidir ki, bu gün Azərbaycanla yanaşı, dünyanın bir çox ölkələrinin rəssamları və heykəltəraşları da azərbaycançılığın daim canlı, əbədi simvolu olan Heydər Əliyev mövzusuna müraciət edirlər. Hazırda dünyanın bir çox xarici ölkələrində Heydər Əliyevin adını daşıyan parkların, xiyabanların mövcud olduğunu görür, Onun əzəmətli heykəlləri ilə qarşılaşırıq. Azərbaycanla yanaşı, qardaş Türkiyədə, eləcə də Rusiya, Ukrayna, Gürcüstan, Rumıniya və digər ölkələrdə böyük azərbaycanlı dövlət xadimi Heydər Əliyevin heykəllərinin ucaldılması xalqımızda milli qürur hissləri doğurur.

Azərbaycan musiqi sənətinin inkişafında da Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur. O, Azərbaycan musiqi mədəniyyətinin böyük yaradıcıları olmuş dünya şöhrətli bəstəkarlar Qara Qarayev, Fikrət Əmirov, Arif Məlikov, Niyazi Tağızadə, məşhur müğənnilər Müslüm Maqomayev, Rəşid Behbudov, Lütfiyar İmanov, Şövkət Ələkbərova, Zeynəb Xanlarova və başqalarının sənətinə yüksək qiymət vermiş, onların əsərlərinin beynəlxalq aləmə çatdırılmasına geniş üfüqlər açmışdır.

Teatr və opera sənətinin yüksək inkişaf mərhələsinə çatdırılmasında da Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri tarixi hadisə səviyyəsində qiymətləndirilməyə layiqdir. Heydər Əliyev epoxası Azərbaycan incəsənətinin məşhur rejissorlarını və aktyorlarını meydana çıxarmışdır.

Azərbaycan elminin inkişaf etdirilməsində də Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri vardır. Görkəmli dövlət xadimi cəmiyyətin inkişafında elm faktoruna xüsusi əhəmiyyət verdiyi üçün ölkədə elmin inkişaf etdirilməsini həmişə diqqət mərkəzində saxlamışdır. Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci dövründə Azərbaycanda Elmlər Akademiyasının fəaliyyəti genişləndirilmiş və ölkəmizin maraqlarına doğru istiqamətləndirilmişdir. Azərbaycan Elmlər Akademiyasında yaradılmış Xüsusi Konstruktor Büroları ölkənin təbii resursları və elm adamlarının səmərələşdirici ideyaları əsasında istehsalat yönlü problemlərin həllinə geniş yol açmışdır. Bu, dövlət mülkiyyətinə və planlı təsərrüfata əsaslanan sosializm cəmiyyətində bazar iqtisadiyyatı əsasında elmi proseslərin formalaşdırılması demək idi. Həmin istiqamətdə həyata keçirilmiş elm-istehsalat prosesləri fundamental və tətbiqi elmin nailiyyətlərinin ölkənin inkişafında özünəməxsus yer tutmasını şərtləndirmişdir.

XX əsrin 70-80-ci illərində Azərbaycanda ən müxtəlif sahələr üzrə böyük elmi məktəblər yaranmışdır. Əvvəlcə ölkə miqyasında ön mövqeyə çəkilən elm xadimləri tədricən məqsədyönlü dövlət siyasəti nəticəsində keçmiş Sovetlər İttifaqı miqyasında qəbul olunan görkəmli alimlər kimi tanıdılmışdır. Onların adı və fəaliyyət dairəsi ilə bağlı olan elm sahələrinin inkişaf etdirilməsi üçün zəruri maddi-texniki baza yaradılmış və siyasi dəstək verilmişdir. Nəticədə, görkəmli elm xadimlərinin layiqli yetirmələri və davamçıları yetişmiş, yeni elmi nəsil formalaşdırılmışdır. Bu isə, öz növbəsində, müxtəlif istiqamətlər üzrə elmi məktəblərin yaranması ilə nəticələnmişdir. Qeyd edilən dövrdə Azərbaycanda yarımkeçiricilər fizikası - selen məktəbi, molekulyar biologiya - fotosintez məktəbi, geologiya - yer elmləri məktəbi, neft kimyası və aşqarlar kimyası, riyaziyyat, nəbatat, torpaqşünaslıq, kristalloqrafiya məktəbləri yaranıb inkişaf etmişdir. Azərbaycanda şərqşünaslıq, ədəbiyyatşünaslıq, dilçilik-dialektologiya, tarixçi-mətnşünaslıq məktəblərinin yaratdıqları çoxcildlik elmi nəşrlər, ölkə əhəmiyyətli ümummilli problemlərə həsr olunmuş monoqrafiyalar, aktual mövzularda keçirilmiş elmi konfranslar respublikadakı siyasi-ideoloji mühitin daha da qüvvətlənməsinə, milli şüurun dirçəldilməsinə xidmət etmişdir. Ulu Öndər Heydər Əliyev görkəmli elm xadimləri Ziya Bünyadovun, Abbas Zamanovun, Xudu Məmmədovun həyatı ilə bağlı ciddi problemləri, nəinki aradan qaldırmış, onların hərtərəfli fəaliyyətləri üçün geniş meydan yaratmışdır.

Ardı Səh. 10

səs

12 iyul 2019-cu il

www.sesqazeti.az

facebook Ses Media Holding

# MÖHTƏŞƏM ƏLLİ İL

*HEYDƏR ƏLİYEV EPOXASINDAN İLHAM ƏLİYEV ERASINA*

Əvvəli Səh. 9

Ölkə maraqlarına həsr edilmiş elmi əsərlərin respublika Dövlət mükafatına layiq görülməsi, ölkədə beynəlxalq simpoziumların təşkili də respublika miqyasında elmin inkişafına ciddi təkan vermişdir. Nəhayət, ölkə rəhbəri Heydər Əliyevin təqdimatı əsasında 1975-ci ildə Azərbaycan Elmlər Akademiyasının Sovetlər İttifaqının ən mühüm ordenlərindən olan “Xalqlar dostluğu” ordeni ilə təltif olunması aparılan məqsədyönlü dövlət siyasətinin mühüm yekunu idi.

Müstəqillik illərində də Azərbaycan elminin yenidən milli dövlətçilik maraqları əsasında inkişaf etdirilməsi ölkəyə ikinci dəfə rəhbərlik edən görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə üzvi surətdə bağlıdır. Ulu Öndərin 21 sentyabr 1993-cü ildə Azərbaycan Elmlər Akademiyasında respublika ziyalıları ilə görüşündəki tarixi nitqi, geniş mənada elmin, ziyalılığın və akademik qurumların xilas edilməsi ilə əlaqədar səsləndirilmiş tarixi bəyanatdır: “Mənə sədalar gəlir ki, Elmlər Akademiyasını, institutları dağıtmaq istəyirlər, elm ocaqlarına biganə münasibət var. Biz bunların hamısına son qoyacağıq. ...Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir. Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. ...Akademiyanın fəaliyyətini tənqid də etmək olar. ...Ancaq ümumən götürdükdə, şübhəsiz ki, elmin inkişaf yoluna yüksək qiymət verməli, onu əldə saxlamalı, yüksək qiymətləndirməliyik. Dağıtmaq asandır, qurmaq, yaratmaq çətindir. ...Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər və biz buna imkan yaradacağıq. Azərbaycan elmi inkişaf etməlidir.”

Görkəmli dövlət xadimi Heydər Əliyevin 4 yanvar 2003-cü il tarixli Sərəncamı ilə ölkənin baş elmi mərkəzinə Milli Elmlər Akademiyası statusu verilmiş, həmin yolla bu akademik qurumun fəaliyyətində ölkə və dövlət maraqları üstündə köklənmiş yeni epoxa başlanmışdır.

Müstəqillik illərində, akademiyada genişmiqyaslı islahatların həyata keçirilməsi ölkəmizin elmini yeni mövqelərə çıxarmış, dünyada tanıtmağa yol açmışdır.

Hazırda Azərbaycan Respublikasında Heydər Əliyevin müstəqil dövlətçilik təlimi, azərbaycançılıq ideologiyası dünyada dəyişən və inkişaf edən reallıqlarla, zənginləşən yeni proseslərlə birlikdə ölkəmizdə yaradıcı şəkildə, ardıcıl olaraq həyata keçirilir. Beləliklə, müasir zamanda möhkəm bünövrələr, böyük sütunlar üzərində yeni və möhtəşəm Azərbaycan qurulur. Ölkəmizin Prezidenti Cənab İlham Əliyevin çoxcəhətli, məqsədyönlü və yorulmaz fəaliyyəti, dövlətçilik işinə çoxaspektli düşünülmüş yanaşmaları, analitik təfəkkürü, müdrik siyasəti və dərin düşüncəsi ilə müstəqil Azərbaycan dövlətçiliyinin yeni epoxası formalaşır.

Artıq hər kəsə yaxşı məlumdur ki, milli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması Prezident İlham Əliyev siyasətinin təməl prinsipidir. Dövlət başçısı İlham Əliyevin siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın hərtərəfli inkişafı naminə aparılan qlobal işlərdə tamamlanır. Yeni tarixi mərhələdə də azərbaycançılıq bu böyük və müdrik siyasətin nüvəsini təşkil edir. Ölkəmizin rəhbəri İlham Əliyev XXI əsrdə müstəqil Azərbaycanın yeni siyasətini müəyyən edən, təzə istiqamətlər açan, yol göstərən, bələdçilik funksiyasını həyata keçirən görkəmli dövlət xadimidir. Bacarıqlı dövlət başçısında bu tip yüksək siyasətçi məharətinin, qəti və aydın mövqeyinin olması müstəqil dövlətin inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır. Bu mənada, yeni tarixi epoxada, məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi, qətiyyət və geniş elmi dünyagörüşü özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və böyük siyasətçinin Azərbaycana rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır. Böyük sürətlə yeniləşən Bakı şəhəri, xüsusi templə inkişaf edən Azərbaycan iqtisadiyyatı, həyata keçirilən Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars Dəmir İpək Yolu, hər gün müasirləşən Azərbaycan cəmiyyəti, məhz Ulu Öndər Heydər Əliyev siyasi kursunun yaradıcı şəkildə, ardıcıllıqla davam etdirilməsinin real bəhrələri və sanballı töhfələridir.

Prezident İlham Əliyev - müstəqil dövlətçilik təliminin inkişaf edən yeni epoxa ilə şərtlənən yeni dövrünün lideridir. İlham Əliyev - Azərbaycanın sınanılmış yolu olan Heydər Əliyev yolunun böyük magistrallardakı qüdrətli sükançısıdır.

Prezident İlham Əliyev müasir Azərbaycan reallığında özünün tarixi mərhələsini - İlham Əliyev erasını yaratmışdır. İlham Əliyev erası - Azərbaycana böyük tarixi nailiyyətlər qazandırmış, yeniləşməkdə olan Azərbaycanı inkişaf etmiş yeni Azərbaycana çevirmiş yeni mərhələdir. İlham Əliyev yeni dünya düzənində Azərbaycana başucalığı gətirən, ölkəmizin nüfuzunu artıran böyük siyasətçidir. Azərbaycanın yeni tarixi epoxadakı inkişaf etməkdə davam edən müasir həyatı Prezident İlham Əliyevin yorulmaz fəaliyyətinin konkret əməli nəticəsidir. Bakının az qala hər gün, hər həftə keçirilən genişmiqyaslı böyük və əhəmiyyətli tədbirlərə layiqincə ev sahibliyi etməsi də Azərbaycanın dünyada söz sahibinə çevrilməsinin real göstəricilərindəndir. Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının üzvü statusunda fəaliyyət göstərməsi, beynəlxalq miqyaslı qərarlara imza atmaq, dünyaya müraciətlə bəyanatlar səsləndirmək haqqı qazanması Prezident İlham Əliyev müdrik siyasətinin təntənəsidir. Böyük uğurla Avropa Oyunları keçirmiş müstəqil Azərbaycan dövlətinin İslam Oyunlarına da bacarıqla ev sahibliyi etməsi ölkəmizin Prezidentinin qlobal siyasi baxışlarının əhəmiyyətli göstəricisidir. Multikulturalizm ilini dünyaya əks-səda salan mühüm tədbirlərlə və real nəticələrlə başa vuran Azərbaycan Respublikasının 2017-ci ildə bəyan edilmiş İslam Həmrəyliyi İlinin düşünülmüş addımlarını atması dövlətimizin uzaqgörən siyasətinin reallıqlarının parlaq ifadəsidir. Ölkəmizdə qüvvətli multikultural və tolerantlıq mühiti yaratmaq Prezident İlham Əliyevin birgəyaşayış modelidir. Ölkə rəhbərinin 2019-cu ili İmadəddin Nəsimi İli elan etməsi Prezident İlham Əliyevin ədəbi-tarixi keçmişimizin, böyük şəxsiyyətlərimizin, milli-mədəni sərvətlərimizin inkişaf etdirilməsinə dövlət səviyyəsində göstərilən diqqətin və qayğının parlaq əməli ifadəsidir.

Azərbaycan Ordusunun Naxçıvanda və Tərtərdə qazandığı böyük zəfərlər, torpaqlarımızın düşməndən azad edilməsi istiqamətində atılmış addımlar Prezident İlham Əliyevin adı ilə bağlı qəhrəmanlıq nümunələridir. Bütün bunlar Prezident İlham Əliyevin müasir dövrün görkəmli liderlərindən biri olduğunu əyani şəkildə təsdiq edir və azərbaycançılıq ideallarının sabahına daha inamla baxmağa tam əsas verir.

Azərbaycan Respublikası görkəmli dövlət xadimi Heydər Əliyevdən - İlham Əliyevə qədər məsuliyyətli və şərəfli yol keçmişdir. Heydər Əliyev epoxası - Azərbaycanda şanlı tarixi və işıqlı böyük gələcəyin möhtəşəm vəhdətidir.

İlham Əliyev erası - müstəqil Azərbaycan dövlətinin müasir dövrünün lideri və bundan sonrakı həyatının hərəkətverici qüvvəsidir.

Prezident İlham Əliyev Azərbaycan Respublikasını qətiyyətlə və yaradıcılıqla irəli aparan qüdrətli dövlət xadimi kimi çoxcəhətli yorulmaz fəaliyyəti ilə ölkəmizin sabahına gur işıq salır.

Müstəqil Azərbaycan dövləti milli-mənəvi dəyərlərlə bəşəri ideaların vəhdəti işığında daha böyük gələcəyə doğru inamla yol gedir.

Heydər Əliyev epoxası və İlham Əliyev erası keçən möhtəşəm 50 il Azərbaycan xalqının tarixi taleyinin və böyük gələcəyinin şansıdır.

Heydər Əliyev epoxası - İlham Əliyev erası davam edir, yaşayır, inkişaf edir və qalib gəlir.

# Daşkəsən rayon icra hakimiyyətinin növbəti səyyar görüşü keçirilib

***Dünən Daşkəsən rayon icra hakimiyyəti başçısı, hüquq-mühafizə orqanlarının, əlaqədar idarə və təşkilat rəhbərlərinin iştirakı ilə Çıraqlı və Almalı kənd sakinləri ilə növbəti səyyar görüş keçirdi. Keçirilən səyyar qəbulda Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev çıxış edərək bildirib ki, Cənab Prezidentin tapşırığına əsasən, əhali ilə keçirilən səyyar görüşlərdə əsas məqsəd yerlərdə ümumi vəziyyəti öyrənmək və narahatçılıq yaradan məsələləri həll etməkdir.***





Ə.Abıyev Prezident İlham Əliyev tərəfindən ölkədə sosial-iqtisadi sahədə həyata keçirilən layihələr nəticəsində, bütün sahələrdə əsaslı dönüş yarandığını, əhalinin maddi rifahının yaxşılaşdırılması istiqamətində, müntəzəm olaraq, zəruri addımların atıldığını bildirib. Görülən işlərin fonunda Daşkəsəndə də böyük uğurlar qazanıldığını qeyd edən Ə.Abıyev son illər rayonda modul tipli yeni məktəb binalarının tikildiyini, yolların asfaltlaşdırıldığını, körpülərin inşa edildiyini, qaz xətlərinin çəkildiyini, elektrik təsərrüfatında təmir işlərinin davam etdirildiyini, Daşkəsən şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulmasında son tamamlama işlərinin aparıldığını və digər abadlıq işlərinin görüldüyünü diqqətə çatdırıb.

Sonra vətəndaşların müraciətləri dinlənilib.

Sakinlər kəndə gələn avtomobil yolunun cari təmir olunması, köhnəlmiş elektrik transformatorunun dəyişdirilməsi, yeni içməli su xəttinin çəkilməsi və digər məsələlər barədə müraciətlər edliblər.

Rayon icra hakimiyyətinin başçısı Ə.Abıyev qaldırılan məsələlərin həll edilməsi məqsədilə əlaqədar qurumlara aidiyyəti tapşırıqlarını verib. Müraciətlərin bir qismi yerində müsbət həllini tapıb. Kənddə yeni və müasir tipli elektrik transformatorunun, qısa müddətdə, quraşdırılması üçün göstəriş verilib.

Kənd sakinləri əhalinin problemlərinin həlli istiqamətində həyata keçirilən ardıcıl tədbirlərə, göstərilən diqqət və qayğıya görə ölkə rəhbəri Cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**R.HÜSEYNOVA**

# Bakıda növbəti tarixi görüş

*Azərbaycan generalların görüş və danışıqlar apardığı ən münasib, neytral və əlverişli yeganə məkandır*

***Artıq Azərbaycan tarixi beynəlxalq görüşlərin məkanına çevrilib. Belə görüşlərdən biri də iyulun 11-də NATO generallarının - Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, Rusiya müdafiə nazirinin birinci müavini, ordu generalı Valeri Gerasimov və NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı, general Tod Uolters arasında keçirilən görüşdür.***

İlk öncə, Azərbaycanın dövlət başçısı İlham Əliyev ordu generalı Valeri Gerasimovu qəbul edib. Görüşdə beynəlxalq səviyyədə mühüm danışıqların, mütəmadi olaraq, Bakıda aparılmasının əhəmiyyəti qeyd olunub. Söhbət zamanı vurğulanıb ki, Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir, hərbi və hərbi-texniki sahədə əməkdaşlığ getdikcə genişlənməkdədir.

Daha sonra Azərbaycan Prezidenti İlham Əliyev NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı ilə Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - Rusiya müdafiə nazirinin birinci müavini arasında keçirilən görüşdə iştirak etmək üçün Bakıya gələn NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı Tod Voltersin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Bu görüşün "Niyə məhz Bakı?" sualı həm ekspert dairələrində, həm də Rusiya və ABŞ mediasında tez-tez səslənir. Bunun da cavabı bəllidir. Çünki Azərbaycan rusiyalı və amerikalı generalların görüşərək, normal şəraitdə danışıqlar apardığı ən münasib, neytral və əlverişli yeganə məkandır.

Belə ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji və nəqliyyat dəhlizləri layihələri ölkəmizin ABŞ və Rusiya ilə əlaqələrini keyfiyyətcə yeni, indiyədək misli görünməmiş səviyyəyə qaldırmaqla yanaşı, dünyada iki rəqib və antoqonist faktiki güc mərkəzinə çevrilmiş Vaşinqtonla Kremlin, əsla çəkinmədən, danışıqlar aparacağı ölkəyə döndərib.

Azərbaycan həm ABŞ, həm də Rusiya ilə normal, sürətlə inkişaf edən və maraqlarla mənafelərin qarşılıqlı təmin olunduğu, üfüqi təmaslara əsaslanmış tərəfdaşlığa söykənən siyasətin yürüdüldüyü, bu baxımdan, postsovet məkanı ilə bahəm, Yaxın Şərqlə Ön Asiyada unikal və təkrarsız ölkədir. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi nüfuzu, dövlətimizin qlobal proseslərdə və regional siyasətdə aktiv yerlə ciddi və nüfuzlu çəkiyə malik olması da önəmli amillər arasındadır. Ən nəhayət, Azərbaycan nə ABŞ-ın təsiri altında olan, nə də Rusiyanın göstərişlərini xarici siyasətində mütləq nəzərə alan ölkə deyil. Azərbaycan nə NATO-nun, nə də "MDB NATO-su" adlandırılan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyil. Bununla yanaşı, Azərbaycan ABŞ və Rusiya ilə yanaşı, Avropa İttifaqının və Şərq ölkələrinin, xüsusilə də, ərəb dünyasının çox böyük saygı bəslədiyi dövlətdir.



**Aydın Mirzəzadə: "Bu görüşün Bakıda keçirilməsi artıq Azərbaycana stabil, vətəndaşların təhlükəsizliyi yüksək səviyyədə qorunan, müxtəlif güc mərkəzləri ilə çox yaxşı münasibətləri olan ölkə kimi qiymət verilir"**

Milli Məclisin deputatı Aydın Mirzəzadə NATO və Rusiya generallarının görüşü üçün, məhz Bakının seçilməsi məsələsinə aydınlıq gətirərək bildirib ki, Azərbaycana stabil, vətəndaşların təhlükəsizliyi yüksək səviyyədə qorunan, müxtəlif güc mərkəzləri ilə çox yaxşı münasibətləri olan ölkə kimi qiymət verilir: "Bu gün dünyanın diqqəti Bakıya yönəlib və NATO və Rusiya generallarının görüşü üçün növbəti dəfə Bakının seçilməsi də çox ciddi hadisədir. Eyni zamanda, bu görüşün Bakıda keçirilməsi, artıq Azərbaycana stabil, vətəndaşların təhlükəsizliyi yüksək səviyyədə qorunan, müxtəlif güc mərkəzləri ilə çox yaxşı münasibətləri olan ölkə kimi qiymət verilir. Bütün bunların hamısı, Ermənistandan başqa, dünyanın digər dövlətləri ilə Azərbaycan arasında yüksək münasibətin daha da dərinləşməsinə səbəb olacaq".

**Elman Nəsirov: "Avropa İttifaqı Azərbaycana çox etibarlı, strateji tərəfdaş kimi yanaşır"**

Sözügedən beynəlxalq tarixi görüşlə bağlı millət vəkili, politoloq Elman Nəsirli Azərbaycan-Avropa İttifaqı münasibətlərinin dinamik inkişaf tempinə malik olduğunu bildirib: "Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu münasibətlər və qarşılıqlı əlaqələr Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf etdirilib. Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun Bakıya səfəri, burada keçirdiyi görüşlər, səsləndirdiyi fikirlər, öz "Tvitter" səhifəsində, məhz Azərbaycan dilində təəssüratlarını çatdırması Avropa İttifaqının Azərbaycana çox etibarlı və strateji tərəfdaş kimi yanaşdığını göstərir: "Donald Tusk Azərbaycan Prezidenti İlham Əliyevə şəxsən bildirdi ki, dövlət başçımızın səyləri, konstruktiv mövqeyi nəticəsində, Avropa İttifaqı-Azərbaycan münasibətləri inkişaf edib, indiki səviyyəyə çatıb. Bununla, o, Azərbaycan Prezidentinin Avropa İttifaqı və Azərbaycanın ikitərəfli əlaqələrinin gücləndirilməsində mühüm rol oynadığını dilə gətirib. Bu, olduqca mühüm amil, böyük dəyər və diqqətdir".

Millət vəkili onu da bildirib ki, Prezident İlham Əliyevin qətiyyətli mövqeyi, qarşılıqlı münasibətlərə, strateji tərəfdaşlıq əlaqələrinə böyük dəyər verməsi, İttifaqa üzv 32 dövlətdən 9-u ilə strateji tərəfdaşlıq müqaviləsini imzalaması münasibətlərin inkişafına əyani misaldır: "Hazırda Avropa İttifaqı ilə imzalanacaq yeni strateji sənəd üzərində iş gedir. Bu sənədin imzalanması üçün əsas fundamental məsələlərdə razılaşmalar əldə edilib və yaxın perspektivdə onun imzalanması baş tutacaq. Həmin sazişin imzalanması ilə münasibətlərimiz keyfiyyətcə yeni mərhələyə qədəm qoyacaq".

**Elxan Şahinoğlu: "Rusiya və NATO generallarının Bakıda mütəmadi görüşlərinin keçirilməsi Azərbaycanın bölgədə artan roluna da işarədir"**

Politoloq Elxan Şahinoğlu isə bildirib ki, Rusiya və NATO generallarının Bakıda mütəmadi görüşlərinin keçirilməsi Azərbaycanın bölgədə artan roluna da işarədir: "Bakıda əvvəllər də belə görüşlər olub. Ancaq həmin görüşlərdə Valeri Gerasimov NATO Müttəfiq Qüvvələrinin Avropadakı baş komandanı general Körtis Skaparotti ilə görüşürdü. May ayında Skaparottini Todd Volters əvəz edib. Yəni bu, Voltersin Bakıda Gerasimovla ilk görüşüdür".

E.Şahinoğlunun fikrincə, Rusiya və NATO generallarının Bakıda mütəmadi görüşlərinin keçirilməsi Azərbaycanın bölgədə artan roluna da işarədir: "Bu rola nə Gürcüstan, nə də Ermənistan uyğundur. NATO-nun Cənubi Qafqazdakı əsas tərəfdaşı olan Gürcüstanın Rusiya ilə münasibətləri gərgindir və iki ölkə arasında diplomatik əlaqələr yoxdur. Bu baxımdan, Rusiya görüş yeri kimi Gürcüstanı qəbul etməz. NATO da Ermənistanı görüş yeri kimi qəbul etməz. Çünki Ermənistan Rusiyanın nəzarəti altındadır. Azərbaycanın isə həm Rusiya, həm də NATO ilə tərəfdaşlıq münasibətləri mövcuddur. Ona görə də, Bakıda görüşmək həm Rusiyaya, həm də NATO-ya sərf edir".

Beləliklə, qlobal güclərin nümayəndələrinin, məhz Bakıda görüşmələri ölkəmizə olan inam və etimadın nəticəsidir. Azərbaycan dünyada sabitləşdirici və sülhsevər ölkə kimi tanınır. Bu müsbət imicin formalaşmasında ölkə rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü siyasət əsas amil kimi çıxış edir.

***RƏFİQƏ HÜSEYNOVA***

## "Azərbaycandan dünyaya mesajlar ünvanlanır"



"Bu gün Azərbaycan dünyanın diqqət mərkəzində olan ölkələr sırasındadır. Elə mütəmadi olaraq paytaxt Bakıda keçirilən beynəlxalq tədbirlər, siyasi, iqtisadi, mədəni və s. müstəvilərdə aparılan müzakirələr bunu deməyə əsas verir. Təbii ki, bütün bunlar səbəbsiz deyil. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət beynəlxalq aləm üçün cəlbedici olmaqla yanaşı, region və dünyaya sabitlik, sülh və təhlükəsizlik vəd edir. Azərbaycanın təşəbbüsü ilə reallığa çevrilən qlobal layihələr ölkələr arasında yeni əməkdaşlıqların meydana gəlməsinə və daha da genişlənməsinə yol açır. Bu layihələr qarşılıqlı milli maraqlara hörmət etməklə hər bir iştirakçı ölkəyə böyük qazanc, iqtisadi mənfəət gətirir". Bu fikirləri SİA-ya açıqlamasında YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.

Vüqar Rəhimzadə bildirib ki, Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov ilə NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Tod Uolters arasında görüşün məhz Bakıda keçirilməsi ölkəmizin beynəlxalq arenada yüksələn nüfuzunun, artan siyasi çəkisinin parlaq təzahürüdür: "Azərbaycan nə NATO, nə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyil. Buna baxmayaraq, bu qurumları təmsil edən qlobal güclərin nümayəndələrinin məhz Bakıda görüşməsi ölkəmizə olan inam və etimadın nəticəsidir. Azərbaycan dünyada sabitləşdirici, sülhsevər ölkə kimi tanınır. Bu müsbət imicin formalaşmasında ölkə rəhbərliyinin həyata keçirdiyi məqsədyönlü siyasət əsas amil kimi çıxış edir. Bu görüş ondan xəbər verir ki, müstəqil siyasət yürüdən, heç kimdən asılı olmayan Azərbaycan dünya miqyasıdan söz sahibi olan ölkələr sırasındadır".

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, qitələri birləşdirən, böyük güclərin hörmətlə yanaşdığı, hər zaman hesablaşdığı Azərbaycan artıq beynəlxalq dialoq məkanına çevrilib: "Bu məkandan isə dünyaya sülh, sabitlik və multikultural dəyərləri, birgə əməkdaşlığı əks etdirən mesajlar ünvanlanır".

***Ceyhun Rasimoğlu***

## Donald Tusk işğalçı Ermənistanı məyus edib



Bakıya səfərindən sonra Yerevanda görüşlər keçirən Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Donald Tusk erməniləri məyus edib. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündən sonra keçirilən mətbuat konfransında Aİ rəsmisi Dağlıq Qarabağ probleminin yalnız sülh yolu ilə həll ediləcəyini vurğulayıb. Ermənistan hökumətinin başçısı isə səfərin yekunlarını şərh edərkən bu məsələyə toxunmayıb.

Eyni zamanda, səfərin yekunlarını şərh edən erməni politoloqlar Donald Tuskun bəyanatlarından məyus olduqlarını gizlətməyiblər. Siyasi şərhçi Armen Badalyan "Sputnik-Armenia" saytına müsahibəsində bildirib ki, avropalı siyasətçinin Bakıda keçirilən mətbuat konfransında Aİ-nin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha bəyan etməsi, lakin nə orada, nə də Yerevanda "millətlərin öz müqəddəratını təyin etməsi" hüququndan danışmaması erməni ictimaiyyətində narazılıq doğurub. Donald Tuskun Aİ Şurasının Prezidenti kimi artıq öz səlahiyyətlərini başa vurması ilə özünə təsəlli verən erməni politoloq onun Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən bəyanatından sonra "dünyanın dağılmayacağını" söyləyib. Bu ədalətli mövqeyin problemə şəxsən Tuskun deyil, Aİ-nin rəsmi yanaşmasının nəticəsi olduğunu unudan Badalyan qeyri-peşəkar fikir səsləndirib: "Qarabağ münaqişəsinin nizama salınması üzrə vəzifədən gedən başçının (Donald Tusk) deyil, Aİ Şurasının yeni rəhbərliyinin nə söyləyəcəyi mühümdür". Problemə dair erməni ritorikasından istifadə edən politoloq onu da əlavə edib ki, problemin həlli ilə Aİ məşğul olmur və bu səbəbdən Donald Tuskun mövqeyi ermənilər üçün o qədər də əhəmiyyətli deyil. "Əlbəttə, Tusk təsadüfi bəyanatlarla çıxış edəcək şəxs deyil, lakin yuxarıda deyilənləri nəzərə alaraq onun sözlərinin əhəmiyyətini şişirtmək lazım deyil".

# Ulu Öndər Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişi hər bir azərbaycanlı üçün qürur tarixidir

*"Azərbaycan Respublikası Meliorasiya və Su Təsərrüfatı" ASC-nin sədri Əhməd Əhmədzadənin yap.org.az-a müsahibəsini ixtisarla təqdim edirik*

***- Əhməd müəllim, bugünlər respublikamızda Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişinin 50-ci ildönümü böyük təntənə ilə qeyd olunur. Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətləri haqqında fikirlərinizi bilmək istərdik...***

- Bəşər tarixində öz xalqının mədəniyyət və mənəviyyatı ilə sıx bağlı olan, əsl ümumxalq sevgisi qazanmış ən böyük şəxsiyyətlərdən biri, zəmanəmizin böyük siyasətçisi və dövlət xadimi Heydər Əlirza oğlu Əliyevdir. Böyük rəhbərin respublikanın ağır iqtisadi, siyasi, mənəvi böhran keçirdiyi bir vaxtda,1969-cu ilin iyul ayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsi ölkəni işıqlı gələcəyə doğru aparan yolun başlanğıcına çevrildi və bu tarix hər bir azərbaycanlı üçün qürur tarixidir.

Tarixdə Heydər Əliyev kimi millətin liderinə çevrilmiş, hamının ümid, pənah yeri olmuş rəhbərlər tək-təkdir. Ümummilli liderimiz Heydər Əliyev öz ölkəsinin hüdudlarından çıxaraq, dünyanın ən böyük siyasətçilərindən birinə çevrilmişdir. O, bir qəhrəman ömrü yaşadı, canlı əfsanəyə döndü. Tanrının verdiyi ömür payını son anınadək xalqına həsr etdi. Elə ömür yaşadı ki, dövlətin, xalqın mənafeyi özünün şəxsi maraqlarının fövqündə durdu. Vətənin abadlığı, uşaqların səadəti, həyatın firavanlığı onun ən böyük arzusu oldu.

Belə bir həyat və fəaliyyət Azərbaycan xalqının xoş alın yazısı, taleyin töhfəsidir. Heydər Əliyev bu xalqın milli sərvətidir. Elə bir sərvətidir ki, peşəsindən, yaşından asılı olmayaraq bütün insanlar ondan faydalanırlar. Bu, dünən də beləydi, bu gün də belədir, sabah da belə olacaq. Və nə qədər Azərbaycan xalqı var, zaman dəyişdikcə gələn hər yeni nəslə bu sərvətdən pay düşəcək.

1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçilən Heydər Əliyev heç bir ay keçməmiş Mərkəzi Komitənin avqust plenumunu keçirdi, iqtisadiyyatı bərbad vəziyyətdə olan respublikanı dirçəltmək üçün qarşıda duran vəzifələri müəyyənləşdirdi. 1970-ci illərədək Azərbaycan keçmiş xammal istehsalçısı olan bir respublika sayılırdı. Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə ölkədə hər şey kökündən dəyişməyə başladı. O, ilk növbədə respublika sənayesində, kənd təsərrüfatında yeni istehsal sahələrinə və bu sahələrdə çalışan çoxsaylı mütəxəssislər hazırlanmasına diqqət yetirirdi. Onun hakimiyyəti dövründə neft sənayesi tamamilə yenidən quruldu, xalqın maddi rifah halı yüksəlməyə başladı.

Belə ki, Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəldiyi vaxtdan Azərbaycanın kənd təsərrüfatında, sənayesində, ümumiyyətlə, xalq təsərrüfatının bütün sahələrində xüsusi canlanma başlandı. Kənd təsərrüfatının inkişaf etdirilməsi haqqında bir neçə tarixi qərar qəbul olundu. Bunlardan "Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi tədbirləri haqqında" (1970-ci il), "Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" (1975-ci il), "1976-1980-cı illərdə torpaqların meliorasiyası və meliorasiya olunmuş torpaqların istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" (1976-cı il) və "Azərbaycanda kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" (1979-cu il) qərarları xüsusi əhəmiyyət kəsb edirdi. İttifaq dövründə belə qərarların qəbul edilməsinə ancaq Heydər Əliyev nail ola bilərdi. Bu qərarlarda Azərbaycanda kənd təsərrüfatı istehsalının yüksəldilməsi və ixtisaslaşdırılması əsasında gələcək üçün respublika iqtisadiyyatının dinamik inkişaf proqramları qəbul olundu.



***Heydər Əliyev şəxsiyyətinin gücü bunda idi ki, o, cəmiyyətdə gedən proseslərdə ölkədə baş verən hadisələrdən dərhal xəbər tutub öz münasibətini bildirirdi. Əhali ilə ünsiyyət qurub xalqın həyatına daha yaxın olurdu. Ayrı-ayrı bölgələrə səfərləri zamanı onun kənd əhalisi ilə söhbətlərini unutmaq olarmı?***

Təcrübəli siyasətçi olan Heydər Əliyev Azərbaycanın dövlətçiliyini möhkəmləndirən qüdrətli şəxsiyyət kimi öz fəaliyyəti ilə tariximizdə mühüm mərhələ təşkil edir.

***- Ümummilli Lİder Heydər Əliyevin 1969-1982-ci illər ərzində ölkəmizə rəhbərlik etdiyi dönəm respublikamızın inkişaf və tərəqqi dövrü kimi xarakterizə olunur. Bu dövrdə həyata keçirilən tədbirlər və əldə edilən nəticələrə bağlı nə deyə bilərsiniz?***

-Həmin dövrləri yaşayan və canlı şahidi olan bir şəxs kimi qeyd etmək istərdim ki, həyatımızın elə bir sahəsi yox idi ki, bu dahi şəxsiyyət onunla maraqlanıb, ortaya çıxan problemləri yoluna qoymasın. Elə götürək, meliorasiya və irriqasiya sahəsini. Ölkəmizdə bu sahəyə maraq hələ XIX əsrin ikinci yarısından başlanmasına baxmayaraq, onun geniş miqyaslı inkişafı Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969 -1982-ci illərə təsadüf edir.

Bu illər ərzində bir sıra iri irriqasiya və meliorasiya obyektləri, o cümlədən Araz su anbarı elektrik stansiyası ilə birlikdə, Mil-Muğan hidroqovşağı, Baş Mil kanalı, Yuxarı Mil və Yeni Xan qızı kanalları, Naxçıvan MR-də Qaraçuq və Arpaçay nasos stansiyaları, Naxçıvan suvarma sistemi, Abşeron suvarma sistemi, Qusar rayonunda Caqar-Cibir magistral kanalı, Şamaxı rayonunda Zaqolovoçay su anbarı, Lənkərançay su qovşağı, Mərkəzi Muğan və Cənubi-Şərqi Şirvan qış otlaqlarının su təminatı sistemləri, Sərsəng su anbarı, Madagiz su anbarı, Arpaçay üzərində Arpaçay su anbarı, Sirab su anbarı, Aşağı Köndələnçay su anbarı, Yuxarı Xanbulançay su anbarı kompleksi, Tovuz rayonunda 3 pilləli nasos stansiyası, Tərtərçay magistral kanalları və digər obyektlər tikilib istismara verildi.

Bu illərdə 200 min hektara yaxın yeni suvarılan torpaqlar kənd təsərrüfatı dövriyyəsinə cəlb edilmiş, 400 min hektara yaxın suvarılan torpaqların meliorativ vəziyyəti yaxşılaşdırılmış, 825 min hektar sahədə suvarma sistemləri yenidən qurularaq onların su təminatı artırılmış, 460 min hektar sahədə əsaslı hamarlama və 150 min hektara yaxın sahədə əsaslı yuma işləri aparılmış, texniki cəhətdən mükəmməl irriqasiya və meliorasiya sistemləri yaradılmışdır.

Bu tədbirlərin həyata keçirilməsi kənd təsərrüfatı istehsalının xeyli artırılmasına və məhsuldarlığın yüksəldilməsinə imkan verdi.

***- Ulu Öndərin 1969-1982-ci illərdə respublikamıza rəhbərlik etdiyi dövrdə su və meliorasiya təsərrüfatı sahəsində görülən işlərin əhəmiyyəti haqqında da fikirlərinizi bilmək istərdik...***

- 1969-1982-ci illərdə meliorasiya və su təsərrüfatı kompleksinə 2,5 milyard manatdan artıq vəsait yönəldilmişdir ki, bu da sovet hakimiyyəti dövrünün ilk 50 ili ərzində bu sahəyə qoyulan vəsaitdən 2 dəfədən artıq idi.

Bu illərdə Azərbaycanda meliorasiya və su təsərrüfatı sahəsi Ulu öndər Heydər Əliyevin bu sahəyə olan daimi diqqət və köməkliyinin nəticəsində ölkə iqtisadiyyatının güclü istehsal bazasına, respublikanın, demək olar ki, bütün bölgələrində iri tikinti və istismar təşkilatlarına, elmi-tədqiqat və layihə-axtarış institutlarına malik olan müstəqil sahəsinə çevrildi.

Xüsusi olaraq vurğulamaq istəyirəm ki, müdrik və uzaqgörən rəhbər, dünya miqyaslı siyasətçi, xalqımızın, bütün melioratorların sevimlisi Heydər Əliyev Azərbaycanda su təsərrüfatı kompleksinin yaradıcısı, onun inkişaf konsepsiyasının, respublikamızda meliorasiya və su təsərrüfatı sahəsində görülmüş əzəmətli işlərin və əldə edilmiş inqilabi dəyişikliklərin həm müəllifi, həm də təşkilatçısıdır. Onun respublikamıza rəhbərliyi dövründə gördüyü tədbirlərin nəticəsi olaraq 1980-cı ildə 1970-ci ilə nisbətən respublikada kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 2,2 dəfə, taxıl istehsalı 2,1 dəfə, pambıq istehsalı 2,6 dəfə, üzüm istehsalı 4,6 dəfə, tərəvəz və tütün istehsalı 2,3 dəfə, meyvə istehsalı 4,4 dəfə, çay yarpağı istehsalı 2,2 dəfədən çox artmışdır.

Qeyd etmək lazımdır ki, hələ o vaxtlar hər hansı bir ittifaq respublikasında bu həcmdə işlərin görülməsini nəzərdə tutan belə böyük qərarlar çox nadir hallarda verilirdi. Bu qərarların qəbul edilməsi yalnız Heydər Əliyevin qətiyyəti, uzaqgörənliyi, dahiliyi və nüfuzunun bilavasitə nəticəsi idi.

Bütün bu yüksək şəxsi keyfiyyətlər Ona Azərbaycanı keçmiş Sovet İttifaqında müttəfiq respublikalar arasında ön yerlərdən birinə çıxarmağa imkan vermişdi. Qısa zaman kəsiyində görülmüş nəhəng işlər, xarakterindəki bütövlük, qətiyyət, mətin iradə, qeyri -adi zəka, tükənməz enerji, vətənpərvərlik, millət sevgisi eləcə də yeniliyin, mütərəqqi təcrübənin, milli və ümumbəşəri dəyərlərin tərəfdarı kimi çıxış edən rəhbər, mahir dövlət idarəçisi, islahatçı təfəkkürə malik olması xalqın gözündə Heydər Əliyevin böyük şəxsiyyət və xilaskar obrazını yaratdı.

Şübhəsiz ki, bu deyilənlər Heydər Əliyevin böyük tarixi şəxsiyyət kimi Azərbaycana rəhbərliyi dövründə,həm də SSRİ rəhbərlərindən biri kimi cəmiyyətdə müstəsna və alternativsiz roluna aydınlıq gətirir. O, Azərbaycanın rəhbəri kimi ölkədə plüralizmin, demokratik düşüncə tərzinin, qanunun aliliyinin bərqərar olması üçün böyük qətiyyət göstərirdi.

Heydər Əliyev 1982-ci ildən keçmiş SSRİ-nin rəhbərlərindən biri kimi dünyada gedən proseslərə dərindən nüfuz edir, beynəlxalq və regional problemlərin, münaqişələrin nizama salınmasında yaxından iştirak edir, İttifaq dövlətinin nəhəng imkanlarını məharətlə Azərbaycanın tərəqqisinə, sosial-iqtisadi yüksəlişinə xidmət edən plan və layihələrin reallaşdırılması işinə istiqamətləndirirdi və iqtisadiyyatın bütün sahələrində olduğu kimi, meliorasiya və su təsərrüfatı sahəsinə də öz qayğısını əsirgəmir, bu sahədə işlərin gedişinə daim nəzarət edir və lazımi köməklik göstərirdi.

1983-cü ildə kənd təsərrüfatında faktiki istifadə olunan suvarılan torpaqların sahəsi 1970-ci ildəkinə nisbətən 265,1 min hektar artmışdı, eyni zamanda istifadə olunmayan suvarılan torpaqların sahəsi 89,7 min hektara qədər azalmışdır.

Lakin,1987-ci ildən sonra respublikanın iqtisadiyyatında yaranmış ağır vəziyyətlə əlaqədar büdcə vəsaitinin çatışmamazlığı üzündən dövlət əhəmiyyətli sistemlərin istismarında ciddi çətinliklər yaranmış, bir sıra mühüm əhəmiyyətli su təsərrüfatı kompleksləri qəza vəziyyətinə düşmüşdür. Tikinti işləri demək olar ki, dayandırılmışdır. Meliorasiya və su təsərrüfatının maddi-texniki bazası da xeyli zəifləmişdir.

***- Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi hakimiyyətə qayıtdı. Bu tarixi qayıdış Azərbaycanın məhv olmaq təhlükəsindən xilas etdi...***

- Ümummilli Lider Heydər Əliyevin ittifaq rəhbərliyindən istefasından sonra milli zəmində başlanan qanlı münaqişələr bütün dünyada söz sahibi sayılan nəhəng bir dövlətin əsaslarını laxlatmış, iqtisadiyyatını tənəzzülə sürükləmişdir. Bunu biz respublikamızda daha çox hiss etmişik.

Həmin dövrdə şəxsən respublika rəhbərliyinin bizim sahəyə laqeyd münasibəti, aparılan işlərin sürətinə və həcminə mənfi təsir göstərmiş, meliorasiya və su təsərrüfatına qoyulan kapital heçə endirilmiş, irriqasiya sistemlərinin istismarına ayrılan büdcə vəsaiti ildənilə azaldılmışdır.Nəticədə mühüm dövlət əhəmiyyətli bir sıra təşkilatlarımız sıradan çıxarılmış, fəaliyyətsiz hala gətirilmişdir. Xoşbəxtlikdən belə vəziyyət çox uzun sürmədi. 1993-cü ilin iyun ayında xalqımızın böyük oğlu Heydər Əliyev ikinci dəfə yenidən Azərbaycanın rəhbərliyinə qayıtdı.

Yenicə müstəqillik qazanmış Azərbaycan Respublikası həmin vaxt çox təhlükəli bir vəziyyətlə üzüzə dayanmışdı. Ölkədə, demək olar ki, vətəndaş müharibəsi başlanmışdı. Bax, belə bir gərgin vəziyyətdə hakimiyyətə qayıdan Heydər Əliyev bütün dünyaya bəyan etdi ki, həyatının qalan hissəsini xalqına qurban verir.

Bizim böyük xoşbəxtliyimizdir ki, dövlətçiliyin bütün incəliklərini dərindən bilən bu əvəzsiz insan ölkənin ağır məqamında imdadımıza çatdı. Ölkəmizin bazar iqtisadiyyatı yolu ilə inkişaf etdiriləcəyi bəyan olundu. Bununla əlaqədar aqrar sahədə başlanan islahatlarla paralel meliorasiya və su təsərrüfatında da bazar münasibətlərinə uyğun işlərə start verildi. Daxildən və xaricdən törədilən əngəllərə baxmayaraq az vaxt ərzində ölkədə sabitlik yaradıldı. Əsas sərvətimiz sayılan yanacaq ehtiyatları hərəkətə gətirildi, dünyanın aparıcı ölkələrinin güclü maliyyə imkanlarına malik şirkətləri ilə "Əsrin müqaviləsi" bağlanıldı və beləliklə, iqtisadiyyatın bütün sahələrində islahatlara geniş meydan açıldı.

Ulu öndər Heydər Əliyevin1993-cü ildə yenidən hakimiyyətə qayıdışı ilə meliorasiya və su təsərrüfatı öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Bu sahəyə diqqət və dövlət qayğısı bərpa olundu, mövcud meliorasiya potensialının dağılmasının qarşısı alındı, ondan daha səmərəli istifadə olunması yolları və sahənin gələcək inkişaf istiqamətləri müəyyənləşdirildi. Onun rəhbərliyi ilə başlanılmış, lakin yarımçıq qalmış obyektlərin yenidən tikintisinə başlanıldı.

Ulu öndərin göstərişlərini əsas tutaraq respublikaya qoyulan xarici investisiyalar ilk növbədə meliorasiya və su təsərrüfatı sahəsinə -Baş Mil-Muğan kollektorunun tikintisinə, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına və Vayxır su anbarının tikintisinə yönəldildi.

Ömrünün 35 ilini Azərbaycan Respublikasının tərəqqisinə həsr etmiş Heydər Əliyev demişdir: "Meliorasiya və su təsərrüfatı obyektləri bizim sərvətimizdir və bu sərvətdən səmərəli istifadə etməliyik". Ümummilli liderimizin bu tövsiyəsi meliorasiya və su təsərrüfatı kompleksi kollektivlərinin başlıca fəaliyyət proqramıdır. Biz həmin proqrama daim sadiq qalacağıq.

# Dövlət başçısının Sərəncamı ilə neftçi-alim Fərman Salmanovun adı əbədiləşdiriləcək

***Dünya neft tarixinə Tümenin zəngin təbii sərvətlərinin ilk kəşfiyyatçılarından biri kimi daxil olmuş Fərman Salmanovun xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Qərbi Sibirin Tümen vilayətində nəhəng neft və qaz yataqlarını kəşf etmiş məşhur azərbaycanlı geoloq, görkəmli alim, geologiya-mineralogiya elmləri doktoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, Sosialist Əməyi Qəhrəmanı Fərman Qurban oğlu Salmanovun xatirəsini əbədiləşdirmək məqsədilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil alan, xüsusi istedadı ilə fərqlənən 2 nəfər tələbə üçün "Fərman Salmanov adına təqaüd" təsis ediləcək, Şəmkir şəhərində Fərman Salmanovun heykəli ucaldılacaq. Bununla yanaşı, Şəmkir rayonunda təhsil aldığı ümumi təhsil müəssisəsinə Fərman Salmanovun adı veriləcək. Bu, dövlət başçısının elmə, onun böyük simalarına, Azərbaycanın adını yüksəldən insanlara olan daha bir diqqətdir.***



Həyatını neft və qaz yataqlarının işlənməsinə həsr edən geologiya-mineralogiya elmləri doktoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, 160-dan artıq monoqrafiya və elmi əsərlərin müəllifi olan Fərman Salmanovun adı dünya neft tarixinə Tümenin zəngin təbii sərvətlərinin ilk kəşfiyyatçılarından biri kimi daxil olmuşdur. Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin fərmanı ilə Surqut şəhərinin hava limanına görkəmli neftçi Fərman Salmanovun adının verilməsi də təsadüfi deyildi.

1928-ci il iyulun 28-də Şəmkir rayonunun Morul kəndində anadan olan F.Salmanov orta məktəbi başa vurduqdan sonra Azərbaycan Sənaye İnstitutunda ali təhsil alaraq, 1954-cü ildə həmin institutun geoloji-kəşfiyyat fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə hələ erkən yaşlarından geoloji ekspedisiyada sıravi işçi kimi başlayan Fərman Salmanov 1954-1959-cu illərdə Novosibirsk Geologiya İdarəsində geoloq, böyük geoloq, neft kəşfiyyatı ekspedisiyasının rəisi olmuşdur.

1959-cu ildə Tümen Ərazi Geologiya İdarəsi Surqut Neft Kəşfiyyatı Ekspedisiyasının rəisi vəzifəsinə təyin edilən Fərman Salmanov 1962-1964-cü illərdə Ust-Balık Ekspedisiyasının baş geoloqu, 1964-1970-ci illərdə Pravdinsk Neft Kəşfiyyatı Ekspedisiyasının rəisi, 1970-1987-ci illərdə Tümen Baş Geologiya İdarəsinin rəis müavini və rəisi vəzifələrində çalışmışdır.

O, heç bir neft ehtiyatının olmadığı iddia edilən Qərbi Sibirdə ilk neft yataqlarını üzə çıxarmışdır. Fərman Salmanovun rəhbərliyi altında karbohidrogen ehtiyatları ilə zəngin yüzdən artıq irihəcmli yataq kəşf edilərək, istismara verilmişdir. Belə ki, Salmanov 1961-ci ilin 21 mart tarixində Megion yatağını kəşf edir. Yatağa qazılmış ilk kəşfiyyat quyusu neft fontanı verir.

Fərman Salmanov ömrünün 50 ilini Sovet İttifaqı və Rusiya Federasiyasının neft-qaz sənayesinə həsr etmişdir. Fərman Salmanovun şəxsiyyətində tədqiqatçı alim səriştəsi, peşəkar neftçi istedadı, dövlət və ictimai xadim təcrübəsi vəhdət təşkil etmişdir. İstehsalatda uğurlarını elmi fəaliyyətlə səmərəli şəkildə əlaqələndirən alim 1972-ci ildə doktorluq dissertasiyası müdafiə edərək, geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsi almışdır. O, 1989-cu ildə Rusiya Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Tanınmış geoloq-alimin neft və qaz geologiyası sahəsində fundamental axtarışlarının nəticələri mütəxəssislər tərəfindən daim yüksək qiymətləndirilmiş və ixtisaslı neftçi kadrların yetişdirilməsində mühüm rol oynamışdır.

F.Salmanov 1987-1991-ci illərdə SSRİ geologiya nazirinin müavini olmuş, 1992-ci ildən "Rospan İnternəşnl" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti, 2002-ci ildən isə "İtera" Şirkəti Direktorlar Şurası sədrinin müşaviri, eləcə də, "Yuqneftqaz" Cəmiyyəti Direktorlar Şurasının sədri işləmişdir.

F.Salmanovun şəxsiyyətində tədqiqatçı, alim səriştəsi, peşəkar neftçi istedadı, dövlət və ictimai xadim təcrübəsi vəhdət təşkil etmişdir. Tanınmış geoloq-alimin neft və qaz geologiyası sahəsində fundamental axtarışlarının nəticələri mütəxəssislər tərəfindən daim yüksək qiymətləndirilmiş və ixtisaslı neftçi kadrların yetişdirilməsində mühüm rol oynamışdır.

F.Salmanovun ictimai xadim kimi fəaliyyəti zəngin və təqdirəlayiqdir. Ayrı-ayrı illərdə Azərbaycanın və Rusiyanın ali məclislərinin deputatı olmuş F.Salmanov iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsi işinə kömək göstərmiş, Rusiyada Azərbaycan diasporunun formalaşdırılması və inkişaf etdirilməsində böyük əmək sərf etmişdir. O, neft sənayesinin inkişafındakı xidmətlərinə görə, bir çox fəxri adlarla, müxtəlif orden və medallarla təltif edilmiş, müstəqil Azərbaycanın ali mükafatına - "Şöhrət" ordeninə layiq görülmüşdür.

Mühəndis-geoloq, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət Mükafatı Laureatı, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru F.Salmanov 2007-ci il martın 31-də ömrünün 79-cu ilində vəfat etmişdir.

Görkəmli neftçi-alim, gözəl ziyalı və təvazökar insan F.Salmanovun xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Dövriyyədə erməni xislətli müxalif partiya sədrləridir

***Müxalifətdaxili intriqalar və qarşıdurmalar gərginləşdikcə, partiya sədrləri haqqında yeni məlumatlar üzə çıxır. Məlum olur ki, müxalif partiya funksionerlərinin hər biri bu və digər formada satqın və xəyanətkar olmaqla yanaşı, əqli qüsurlarına da malikdirlər. Görünür, məhz bu səbəbdən, dağıdıcı müxalif ünsürlərlə xaricdəki "söyüş qrupu"nun üzvləri arasında dərin uçurum, gərgin qarşıdurmalar yaranıb. Söhbət etdiyimiz müsahiblərimiz də, o fikirdədirlər ki, müxalif satqın ünsürlərlə xaricdəki xəyanətkar toplum arasında heç bir fərq yoxdur, hər iki tərəf ermənidən də betər erməni xislətli və erməni sifətlidirlər.***

## Təkamül Partiyasının sədri Teyyub Qənioğlu: "Hazırda müxaliflər arasında mövqe savaşı gedir "



- Müxalifətin üzdəniraq simaları ilə xaricdəki "söyüş qrupu"nun üzvləri, ümumiyyətlə, siyasətin nə olduğunu bilmirlər. Yəni siyasəti söyüşlə qarışdırıblar və heç danışdıqlarını da bilmirlər. Amma bunlar arasında düşən qarşıdurma gözlənilən idi. Yəni maraqların bölgüsü məsələsində ziddiyyətlərin yaranması nəticə etibarı ilə, qarşıdurma ilə nəticələnməli idi və belə də oldu. Hazırda müxaliflər arasında mövqe savaşı gedir. Amma bunlar başa düşmürlər ki, söyüşlə heç vaxt nüfuz qazanmaq olmaz. Çünki söyüşlə nüfuz qazanmaq hələ heç kəsə nəsib olmayıb və bundan sonra da olmayacaqdır. Onlar, özlərini daha da, gözdən salırlar. Demək olar ki, AXCP-Müsavat funksionerləri, eləcə də, xaricdəki söyüş maşınının üzvlərinin şəxsi ambisiyalarının olması onların arasında həmişə bu cür vəziyyətin yaranmasına səbəb olub. Yəni həmin şəxslər bir-birlərinin şəxsi maraqlarına toxunanda, başlayırlar bir-birləri ilə düşmənçilik etməyə. Bir sözlə, müxalifət düşərgəsində mənəm-mənəmlik, mənafelərin toqquşması heç vaxt müxalifətin birləşməsinə imkan verməyib. Ümumiyyətlə, adını siyasətçi qoyan şəxs heç vaxt dilinə söyüş gətirməməlidir. almamalıdır. Bunlar başa düşmürlər ki, bir-birini qurşaqdan aşağı, senzuradankənar ifadələr işlətməklə, söyməklə bataqlıqda ikən batırlar və getdikcə daha dərinə batacaqlar. Elə hesab edirlər ki, bunları maliyyələşdirənlər onları söyüş söydüklərinə görə dəstəkləyirlər. Əslində, pul verən fondlar da yəqin bunlara gülürlər.

## Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Əli Kərimli və Arif Hacılı siyasət meydanında heç bir uğura imza atmayıblar"



- Dəfələrlə qeyd etmişik və bu gün də, bir daha bildirirəm ki, söyüş kampaniyasına qoşulmuş insanlar anti-Azərbaycan qüvvələrdən maddi və mənəvi dəstək alırlar. Cılız düşüncəli insanlar çirkin kampaniyaya başladıqdan sonra tamamilə nüfuzdan düşüblər. Çünki xalq onların bu cür kampaniya aparmasını birmənalı tərzdə pisləyir. Real fakt ondan ibarətdir ki, pozucu qüvvələrin önündə gedən Əli Kərimli, Arif Hacılı və digərləri siyasət meydanında heç bir uğura imza atmayıblar. Demək olar ki, daxildə olan həmin şəxslər xaricdə olan şəxslərə qoşulmaqla şou xarakterli bir çox çirkin bir kampaniyaya qoşuldular və nəticə etibarı ilə də heç bir şeyə nail olmadılar. İndi isə, başlayıblar bir-birlərinə qarşı mübarizə aparmağa. Amma məsələ burasındadır ki, bunlar arasında maliyyə bölgüsü deyilən bir şey var ki, bunlar o xaricdən aldıqları maliyyəni də bölə bilmirlər. Həmişə də bu maliyyəni bölə bilmədiklərinə görə də, aralarında dava-dalaş düşür.

***GÜLYANƏ***



# Cari ilin birinci yarısında Azərbaycanı ziyarət edən turistlərin sayı açıqlanıb

2019-cu ilin birinci yarısında Azərbaycanı ziyarət etmiş xarici qonaqların sayı 1.4 milyona çatıb ki, bu da ötən ilin eyni dövründə ölkəyə gəlmiş 1.3 milyon xarici ziyarətçi ilə müqayisədə 86 min və ya 6.5 faiz çox qonaq deməkdir. Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, gələnlərin böyük hissəsini 29.4 faizini Rusiya (414 min), digər böyük hissəsini isə 24.3 faizini Gürcüstan (342 min) vətəndaşları təşkil edib. Gürcüstan üzrə artım 22.8 faiz və ya 64 min nəfər olub. Qeyd etmək lazımdır ki, bu iki ölkədən gələn qonaqların sayı ümumi gələnlərin 50 faizdən çox hissəsini təşkil edib. Türkiyədən gəlmiş qonaqların sayı 3.7 faiz artaraq toplam 148 minə çatıb. Cənubi və Mərkəzi Asiya ölkələrindən gələnlərin sayında yenə də sürətli artım müşahidə olunur - artım ilin ilk yarısı üçün uyğun olaraq 37.8 faiz və 50.2 faiz olub.

Azərbaycan üçün Cənubi Asiyanın əsas turizm bazarları Hindistan (27 min; 80.2% artım) və Pakistan (19 min; 24.4% artım), Mərkəzi Asiyada isə Qazaxıstan (20 min; 15.1% artım) və Türkmənistandır (21 min; 85% artım).

# Ali təhsil müəssisələrinə imtahansız qəbul olmaq üçün 10 mindən çox subbakalavrın ərizəsi təsdiqlənib



Ali təhsil müəssisələrinə imtahansız qəbul olmaq istəyən subbakalavrların qeydiyyatı davam edir. Dövlət İmtahan Mərkəzindən (DİM) AZƏRTAC-a bildirilib ki, elektron ərizələrin qəbulu iyulun 17-dək internet vasitəsilə aparılır. Subbakalavrlar DİM-in internet saytının ekabinet.dim.gov.az səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in internet səhifəsinə daxil olub, "Subbakalavrın elektron ərizəsi" formasını təsdiq edirlər. Hazırda 10176 subbakalavr elektron ərizəsini təsdiq edib. Ərizələrin sayına əsasən daha çox mühasibat uçotu (931 nəfər), maliyyə işi (564 nəfər), ibtidai sinif müəllimliyi (528 nəfər), yol hərəkətinin təşkili (399 nəfər) ixtisaslarını bitirən subbakalavrlar qeydiyyatdan keçib. Digər ixtisaslar üzrə ərizələrinin sayı ilə DİM-in saytındakı cədvəldə tanış olmaq mümkündür. Müsabiqədə iştirak ödənişsizdir.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

12 iyul 2019-cu il

# Siyasi məhvə hamilə qalan psevdomüxalifətin son akkordları

*Müsavatçı İsa Qəmbərin cəbhəçi Qənimətin yanında nə işi var?*

***Fransada "siyasi mühacir" adı altında fəaliyyət göstərən Qənimət Zahidin "Youtube" sosial şəbəkəsi üzərindən erməni lobbisinin pulu ilə efirə çıxan "Sözarası" adlı canlı yayımının növbəti qonağı Müsavat partiyasının sabiq başqanı, "MSDM" sədri İsa Qəmbər olub. Əslində, İ.Qəmbərin AXCP sədri Əli Kərimlinin də barmağı olduğu "Sözarası"na çıxması, necə deyərlər, təəccüb doğurdu. Məsələ ondadır ki, bu canlı yayıma, əsasən, dağıdıcı müxalifətin Ə.Kərimli qanadına yaxın şəxslər çıxırlar. Hətta həmin qanda aidiyyatı olmayan digər qanad təmsilçiləri efirə çıxanda AXCP sədrinin trolları dərhal onlara qarşı hücuma keçir, rəy bölümündə Ə.Kərimlinin şəninə təriflər yağdırır, dəvət edilmiş qonaqları isə, ya təhqir edir, ya da yumşaq desək, "rədd ol" komandası verirlər.***

## Qənimət Zahidin Əli Kərimli ilə fikirləri üst-üstə düşmür

Burada isə təəccüblü heç nə yoxdur. Daha doğrusu, Q.Zahidin "Sözarası" adlı canlı yayımı onun özü tərəfindən idarə edilmir. Əsas sifarişçilərin anti-Azərbaycan dairələri olduğu məlum olsa da, burada tezisləri, mövzuları və s. tapşırıqları Q.Zahidə, bilavasitə Ə.Kərimli verir. Bəzi məqamlarda isə, Q.Zahidin Ə.Kərimli ilə fikirləri üst-üstə düşmür və o da, AXCP sədrini tapdalayaraq, istədiyi qonaqları canlı yayımına dəvət edir. Xatırladaq ki, Q.Zahidin qonağı AXP sədri Pənah Hüseyn olarkən, Ə.Kərimlinin trolları partiya sədrinə qarşı ən ağır söyüşləri söyərək, Q.Zahidi qınaq, AXP sədrini isə təhqir hədəfinə çevirmişdilər. Eləcə də, verlişə dəvət edilən digər müxalifətçilər də eyni aqibəti yaşayıblar.

Məhz İ.Qəmbərlə də belə oldu. Lakin Q.Zahidin İ.Qəmbəri dəvət etməsi həm də Müsavatın sabiq başqanına birgünlük "jest" idi. Çünki Ə.Kərimli ölkədəki sabitliyi pozmaq istiqamətində addımını atarkən, polisə aparılıb ifadəsi alınarkən, onun tərəfdarları Müsavatın qərargahı qarşısına toplaşmışdılar. Nəzərə alsaq ki, İ.Qəmbərlə Ə.Kərimli müxalifət düşərgəsinin bir-birinə qənim kəsilmiş, barışmaz və qarşılıqlı antipatik hisslər bəsləyən "liderləridirlər", bu zaman qeyd edilən fikri yalnız birgünlük "jest" olaraq qiymətləndirmək olar.

## İsa Qəmbərin belə bir düşüncə tərzi onun siyasi bic deyil, siyasi gic olduğunu əsaslı şəkildə isbatlayır

Daha bir maraqlı məqam, mövzunun "siyasi mühacirlərin" ölkəyə geri dönüşü və "inqilab" olması idi. Düzdür, radikalçılıq və dağıdıcılıq təfəkkürü ilə uzun illərdir var-gəl edən "liderlər" heç vaxt arzularına çatmayıblar, heç bundan sonra da çata bilməyəcəklər, fəqət, hələ də bənzər düşüncələrlə "bu gün gəlirik, sabah gəlirik" deyib siyasi səhnədə dala-qabağa getmələrini davam etdirirlər. Öz uğursuzluqlarını xalqın üzərinə yıxanların, bilavasitə xalq tərəfindən rədd edilmələri isə, əlbəttə ki, beləlırini qıcıqlandırır. İ.Qəmbər və başqaları uğursuzluqlarını




hər zaman xalqı günahlandırmaqla ört-basdır edirlər. Bu dəfə isə İ.Qəmbər, xalqı dolayısı ilə ittiham edib. O deyib ki, Azərbaycan xalqı sabitliyi və sülhpərvərliyi üstün tutur, ona görə də xaotik hadisələrin baş verməsini istəmir (?!-R.N.). Yəni "MSDM" sədri bir tərəfdən etiraf edir ki, radikal müxalifət dağıdıcılıq yolunu tutur, başqa tərəfdən, xalq onları belə məsələlərdə, ümumiyyətlə, dəstəkləmir. Bu isə birbaşa xalqı ittiham etmək deməkdir. Bəli, xalq onları dəstəkləmir və ona görə də, xalqı bu və ya digər şəkildə ittiham edir. Guya ehtiyatla danışan İ.Qəmbərin belə bir düşüncə tərzi onun siyasi bic deyil, siyasi gic olduğunu əsaslı şəkildə isbatlayır.

## İsa Qəmbərin ümidini Qərbdəki "siyasi mühacirlərə" bağlaması, ümumilikdə, dağıdıcı müxalifət düşərgəsində "lider" adlandırılanların özlərinə inamlarının olmamasının faktiki etirafıdır

Digər tərəfdən, İ.Qəmbər iddia edir ki, "inqilab" üçün Qərbdəki "siyasi mühacirlər" geriyə - Azərbaycana dönməlidirlər. Amma fakt budur ki, belələri heç vaxt cürət edib ölkəyə geri qayıtmazlar. Onlar qorxaq və qorxaq olduqları qədər də, hər şeylərini pulaparaya satan siyasi nadürüstlər yığnağıdırlar. Belələri yaxşı bilirlər ki, ölkəyə geri dönsələr, ilk növbədə, xalqın hiddəti qarşısında aciz qalacaqlar, sonra isə bu dövlətin qanunları qarşısında cavab verməli olacaqlar. Bu yerdə, yenə də onların monitorarxası, ya da klaviatura "qəhrəmanları" olduqlarını demək mümkündür. Bu baxımdan, İ.Qəmbərin Q.Zahidin "Sözarası"nda "siyasi mühacirlər" ölkəyə geri dönərlərsə, inqilab barədə düşünmək olar" tipli sərsəm ifadəsinin boğazdan yuxarı deyilmiş söz olduğunu söyləmək mümkündür.

Başqa tərəfdən, İ.Qəmbərin ümidini Qərbdəki "siyasi mühacirlərə" bağlaması, ümumilikdə, dağıdıcı müxalifət düşərgəsində "lider" adlandırılanların özlərinə inamlarının olmamasının faktiki etirafıdır. Yəni onlar bir şeyi arzulayırlar - ölkədəki sabitliyi pozmaq, xaos yaradıb, "siyasi mühacirlər" vasitəsi ilə onlara verilmiş sifarişləri reallaşdırmaq. Demək, ortaya belə bir proqnoz çıxır - doğrudan da "siyasi mühacirlər" ölkəyə dönməyəcəklər, nə də "liderlərin" xam xəyalları elə xam xəyal olaraq qalacaq. Ortada xalq-hakimiyyət faktoru mövcuddur və bu faktor o qədər güclü dayaqlara söykənib ki, bənzər sərsəm düşüncələr, ümumiyyətlə, ağızdan çıxan kimi məhv olur. Hətta belə demək mümkündürsə, psevdomüxalifət - "siyasi mühacirlər" və "ana müxalifət liderləri" siyasi məhvə hamilə qalıblar, onlar özlərinin son akkordlarını vurmaqdadırlar: bu qədər bəsit...

**Rövşən NURƏDDİNOĞLU**

# Müxalifətin qara yarası - Əli Kərimli

*Sağlam düşüncəli insanlar anti-dövlətilik çıxışlarına görə, onun həbs olunmasını tələb etməlidir!*

***Müxalifətin qara yarası olan AXCP sədri Əli Kərimliyə qarşı münasibətlər daha da kəskin hal alıb. Artıq müxalifət düşərgə sakinləri də müxalifətin üz qarası olan və satıla-satıla hər cürə alçaqlıq edən Ə.Kərimli ilə bağlı kifayət qədər faktlara malikdir. Bu dəlillər sübut edir ki, bu parazit əxlaqsız bütün fəaliyyəti boyu Azərbaycan dövlətçiliyini, onun müstəqilliyini sarsıtmaq məqsədi güdüb.***

O da bəllidir ki, uzun müddətdir AXCP adlı pərdələnmiş təşkilat başda olmaqla, "Azadlıq" qəzeti, eləcə də, sosial şəbəkələrdə fəaliyyət göstərən məlum qrup Ə.Kərimlinin sifarişlərinə uyğun olaraq, ölkə və xalq üçün ən taleyüklü məqamlarda belə düşmənin informasiya təxribatlarına dəstək verirlər. Onlar qınanıldıqda isə, Kərimlinin ən çox sevdiyi "silah" - söyüş və təhqir kampaniyasına start verilir. Sadə bir fakta əsaslanaq. 2016-cı il aprel ayının ilk dörd günündə cəbhədə baş verən məlum hərbi əməliyyatlardan sonra ictimai rəy, məhz bu faktorun şahidinə çevrildi. Ə.Kərimli və onun yaxın ətrafı daxildə vəziyyəti gərginləşdirməyə xidmət edən çağırışlar irəli sürməklə, əsas məqsəd ictimai rəyi yanlış istiqamətə yönəltmək, xalqın vətənpərvərlik ruhunu, xalq-la hakimiyyət arasında birliyi sarsıtmaq və bununla da, dövlətimizin əldə etdiyi mühüm nailiyyətin əhəmiyyətini heçə endirməkdir.

## Əli Kərimli yenə antimilli ruhda

Mütəmadi olaraq, Almaniyadan yayımlanan və əsas fəaliyyətini anti-Azərbaycan xarakterli mövzular üzərində quran "Meydan" TV də çıxışları zamanı dağıdıcı partiyanın sədri xalqımızın ən yaralı yeri olan Qarabağ mövzusundan danışarkən, milli-strateji baxışları bir kənara qoyaraq, bilavasitə ermənilərin xeyrinə ifadələr işlədib. O, regionun ən güclü dövləti olan Azərbaycanı zəif Ermənistan qarşısında gücsüz göstərməyə çalışıb. O, hətta ümummilli maraqlar kontekstində hakimiyyət-müxalifət dialoqlarından imtina edərək, yalnız erməni lobbisinin dəstəyi ilə fəaliyyət göstərən Qərb qurumlarının göstərişlərinə xidmət edib. Cəbhənin "lideri" qoşunların təmas xəttində ermənilərin təxribat törətdikləri vaxt sözügedən müsahibəsini verməklə, bir növ işğalçı ölkəyə stimul verib. Məqsəd tamamilə bəllidir: Azərbaycan cəmiyyəti və ordusuna inamsızlıq aşılamaq və qüdrətli ordunun gücünü xalqın nəzərində aşağılamaq!

Təbii ki, bu cür çıxışlarda Ə.Kərimlinin digər məqsədi ölü siyasətçi görkəmindən çıxmaq cəhdləridir. Çünki bu gün onu və ətrafını tanıyanların hər biri, yaxşı bilir ki, AXCP sədrinin siyasi fəaliyyəti yox dərəcəsindədir və ayaqda qalmasına səbəb sosial şəbəkələrdə yazdığı statusları, eləcə də, "Meydan" TV kimi televiziyalarda çıxışlar etməsidir. Dağıdıcı partiya sədrinin "fəaliyyətində" bu cür qəribəliklər, antimilli çıxışlar kifayət qədərdir. Yəqin bundan sonra da olacaq. Amma bir şeyi unutmaq olmaz ki, belə fürsətbazların cəzasını tarix bir gün mütləq verəcək.

## "Yurd" sədrinin sonu görünən qaranlıq yolu

Alternativ AXCP-nin sədri Razi Nurullayev bildirir ki, Ə.Kərimli xalqın narazılığı üzərindən danışan çürük meyvə kimidir: "Əli Kərimli xalqın narazılığı üzərindən danışmaq və ancaq danışmaq siyasəti yürüdən, bir mətbu orqandan o birinə qaçıb, hər gün dediklərini tutuqşu kimi təkrarlayan satqın sədrdir. Əslində, "Yurd" təşkilatının yaradılması da AXC-nin dağılmasına və Ə.Elçibəyin rəhbər postdan getməsinə xidmət edirdi. Bu məqsədlə onlar "Elçibəydən prezident olmaz, Ə.Kərimli sədr seçilməlidir" kimi təbliğatlar aparır, saxta sorğular keçirməklə, Ə.Kərimlini birinci, Elçibəyi isə sonuncu yerdə ictimaiyyətə təqdim edirdilər".

R.Nurullayev, onu da vurğulayıb ki, məhz AXCP sədri bu günədək yürütdüyü siyasətilə hər an Azərbaycanın milli maraqlarını satmağa hazır olduğunu nümayiş etdirib. O və müttəfiqləri yalançı, qısaömürlü birliklər yaradaraq pafoslu çıxışlar edir, əslində isə, bir-birlərindən xarici pulverənlərə kompramat ötürmək uğrunda mübarizə aparırlar. Hər bir tərəf bu mübarizədə önə çıxmaq barədə düşünür və bu məqsədlə əlindən gələni edir. Əli Kərimliyə, yetirdiyi yarıtmaz və milli maraqlara ciddi şəkildə xələl gətirən siyasəti ucbatından, hansı mənfi obraza yaraşan ad desəniz qoymaq mümkündür. Bu adamın keçmişi heç öz tərəfdarlarına belə, tam şəkildə bəlli deyil. Sözün açığı, onun siyasi fırıldaqçılıq üsullarına şeytan da həsəd aparar.




## Mirmahmud Mirəlioğlu: "AXCP sədri o qədər mahir yalançı və mahir siyasi "moşennik"dir"

KXCP sədri Mirmahmud Mirəlioğlu AXCP sədrini xəyanətdə ittiham edərək, bildirib ki, AXCP sədri o qədər mahir yalançı, o qədər mahir siyasi moşennikdir ki, ondan nə desən, gözləmək olar: "Ə.Kərimli kimi moşennikin AXCP-yə sədrlik etməsinə təəssüflənirəm. Çünki artıq onun iç üzü bütün çılpaqlığı ilə açılıb cəmiyyətə təqdim olunub. Siyasi prosesləri mütəmadi izləyənlərə yaxşı bəllidir ki, AXCP sədrinin adı vaxtaşırı ayrı-ayrı müxalif partiya funksionerləri tərəfindən xarici fondlarla, Azərbaycan əleyhinə kompramat toplamaqda maraqlı olan beynəlxalq qüvvələr və mətbuatla işbirliyinə hallanıb və açıq şəkildə bildirilir ki, Ə.Kərimli, məhz şəxsi və partiya maraqları naminə, yeri gələndə, dövlət və millət maraqlarını da sata bilər, satır da... "

M.Mirəlioğlu, onu da bildirib ki, Ə.Kərimlinin anti-Azərbaycan mövqeyinə, fikirlərinə və hərəkətlərinə görə güclü tənqid atəşinə tutaraq, ona keçmişini xatırlatmaqla korrupsiya əməllərini və xalqa, dövlətçiliyə xəyanətini faktlarla ifşa edib. Bəli, tarixi həqiqət budur. Tarixi təhrif etmək olar, amma dəyişdirmək olmaz. Vay o günə ki, Ə.Kərimlinin ətrafındakı manqurtlaşmış 3-5 nəfər də ayıla. Bax onda Ə.Kərimlinin qaçmaq üçün lüsk maşına və qorunmaq üçün cangüdənə daha çox ehtiyacı olacaq. Onda isə cinayət kürsüsünə oturub etdiyi satqınlığa və cinayətlərinə görə xalq qalşısında cavab verəcək.

**Rəfiqə HÜSEYNOVA**

# Uşaqların tərbiyəsi və hüquqlarının vəhdəti

**V.Q.Borisova-Jarovaya görə, insaf (ədalət) prinsipi də, öz növbəsində, bütün fərdlərə sosial münasibətlərdə, tibbi müalicənin təmin olunmasında, hər hansı həkim yardımının göstərilməsi şəraitində bərabər şanslar təqdim edir. Tibbi bioetikanın bu prinsipi "Uşaq Hüquqları haqqında Konvensiya"da nəzərdə tutulmuş əksər uşaq hüquqlarında özünü büruzə verir: sağ qalmaq, inkişaf etmək, identiklik və ailə hüququ.**

B.Bennet və C.Tomossi qeyd edirlər ki, bioetika, geniş mənada, bu sahədə işləyən alimlərin anlamında insanların sağ qalması haqqında elm olaraq, insanın ləyaqət və bütövlüyü prinsiplərinə, onun fiziki bədəninin və psixikasının həssaslığına əsaslanmışdır. Ümumi bioetikanın başlıca prinsipi mərkəzçi-biosfer prinsipidir. Bu prinsipə əsasən, bioetik xarakterli fəaliyyət və tədqiqatların mərkəzində insan dayanır, onların məqsədi isə, insanın təhlükəsizliyinin və sağ qalmasının təmin edilməsidir. İnsanın təhlükəsizliyi üzrə tədbirlərdən başqa, flora və faunanın müdafiəsi üzrə fəaliyyətlər də mövcuddur. Şübhəsiz, bu prinsip Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin müddəalarının məzmununda nəzərə alınmışdır.

K.Milsin fikrincə, birgə təkamül prinsipi insanın və təbiətin müştərək mövcudluğunda qarşılıqlı təsirə və harmoniyaya riayət olunmasına, hətta müxtəlif elmi və sənaye texnologiyalarının yarandığı və inkişaf etdiyi hallarda da ekosistemdə təbii tarazlığın saxlanmasına təkid edir.

K.Stounun göstərdiyi kimi, sosiallaşma prinsipi bioetika prinsiplərinə və insan hüquqlarına riayət olunması şəraitində fərdin cəmiyyətə inteqrasiyasını asanlaşdırmaq məqsədi daşıyan həyat vərdişlərinin formalaşdırılmasına yönəldilmiş bioetika sahəsində təhsili tələb edir.

Onun fikrincə, əxlaq prinsipi şəxsiyyətin biosfer elementləri ilə olan bütün münasibətlərinin əsasıdır və bildirir ki, bəşəri dəyərlərə ciddi əməl edilməsi insanın mövcudluğunun mahiyyətini təşkil edir. Hər hansı sahədə, hər şeydən öncə, biologiya və təbabətdə bütün elmi kəşflər bunsuz insan həyatı üçün təhlükəli və riskli ola bilər və hətta bəşəriyyətin öz mövcudluğunu da təhdid edə bilər.

Bioetika insanın azadlığı və məsuliyyəti prinsipinə də əsaslanır. Bu prinsip insana bioetika kontekstində müəyyən azadlıq verir. Bu, beynəlxalq və milli sənədlərdə ifadə edilmiş digərlərinin hüquq və azadlıqlarına riayət edilməsinin zəruriliyi ilə və insanın bütün canlılara - heyvanlara, bitkilərə və s. münasibətdə məsuliyyət hissi ilə məhdudlaşdırılır (Ç.Çelmşen və N.Sartorius).

Bu müəlliflərin fikrincə, həssaslıq prinsipi ayrılıqda hər bir fərdin və bütövlükdə, bütün insanların həyatının reallığını təmsil edir. Bioetika zəiflərin: uşaqların, qocaların, məhdud imkanlı insanların, yoxsulların, hamilə qadınların və əlillərin həssaslığını nəzərə alır. Bu, insan hüquqları üzrə beynəlxalq sənədlərin müddəaları ilə birbaşa əlaqəlidir.

Hər bir ailə övlad sahibi olmağı arzulayır. Amma uşağa baxmaq kənardan göründüyü qədər asan iş deyil. Uşaq böyütmək və tərbiyə etmək, hər şeydən əvvəl, böyük bir fədakarlıq tələb edir. Çünki hər bir uşağın həssaslıq tələb edən dövrləri var. Bu dövrlər arasındakı iki dövr var ki, valideynlər bu dövrdə daha səbrli və diqqətli olmalıdırlar. Bu dövrlərdən biri 3-5 yaş dövrü, digəri isə yeniyetməlik dövrüdür.

3-5 yaş dövrü

Uşaq 3 yaşına qədər içində yaşadığı dünyanı dərk etməyə çalışır. 3 yaşına yaxınlaşdıqca, artıq şəxsiyyəti formalaşmağa başlayır. Bu dövrdə uşaq hər şeyin ona aid olduğunu düşünür. Təbii olaraq "mən"lə başlayan cümlələr qurur. Bu yaşda olan uşaqlara inadkarlıq xasdır. 3-5 yaş dövründəki uşaqların özlərini qəbul etdirmək üçün "yaramaz" hərəkətlərə yol vermələri də təbiidir.

Bu dövr, əsasən, 5 yaşına qədər davam edir. Əgər valideyn bu dövrdə uşağın bütün istəklərini yerinə yetirirsə, deməli, böyük səhvə yol verir. Halbuki ən uzunömürlü tərbiyə bu dövrdə verilən tərbiyədir. Buna görə də, valideyn uşağı anlamağa çalışmalı, onunla tez-tez ünsiyyətdə olmalı və cəmiyyət içində ona qarşı alçaldıcı hərəkətlərə yol verməməlidir.

Yeniyetməlik dövrü

Əgər 3-5 yaş dövründəki uşaq "mən"lə başlayan cümlələr qurursa, yeniyetməlik dövründəki uşaq daha çox "mənə görə", "mənim fikrimcə" deyir bu isə, onun hər şeyi bildiyini düşünməsindən irəli gəlir. Ətrafındakıları bəyənmir və təbii ki, onları mümkün qədər tənqid etməyə çalışır. Yeniyetməlik dövründə uşağın xarakteri yavaş-yavaş formalaşmağa başlayır.

İnadkarlıq göstərir, əsəblərinə hakim ola bilmir. Beləliklə, bu iki dövr təhlükəsiz ötüşsə, gələcəkdə valideynlə uşaq arasında elə bir ciddi problem baş verməz.

Yeni biliklər əldə etmək və ya yaşıdları təqlid etmək istəyən uşaqlar radikal ideyalar və çağırışların (terrorizm məzmunlu çağırışlar daxil olmaqla) və ya destruktiv "əyləncələr" müzakirələr aparılan qrupların üzvü ola bilərlər.

Böyümə prosesində uşaqlar öz ailə üzvlərindən, bəzən - məşhur aktyorlardan və musiqiçilərdən nümunə götürürlər. Ancaq son illərdə uşaqların qəhrəmanları, həmişə münasib kontent təklif etməyən video-blogerlər olub. Tez-tez videolarda söyüşlər, bukmeker qurumlarının reklamı və ya təhlükəli hərəkətləri göstərirlər.

Valideynlərin anlaya bilmədikləri gizli təhlükələrdən başqa, aşkar təhlükələr də var - uşaqlar əhəmiyyətli şeyləri unudub, sosial şəbəkələr və ya onlayn oyunlarla internetdə həddən artıq çox vaxt keçirirlər. Məsələn, uşaqlar ev tapşırıqlarına və ya idmana diqqət ayırmırlar.

İnternet üzərindən təcavüz həmişə uşağınızın emosional vəziyyətinə ciddi təhlükə yarada bilər, və bu, həmişə yalnız təhqir və ya istehza ilə bitmir, bəzən təcavüzkarlar şəxsi məlumatları oğurlayırlar. Məsələn, uşağınız zərərli bir keçid vasitəsilə sistemə zərər vura bilər.

Mütəxəssislər uzun müddət məxfilik pozuntuları səbəbindən, həyəcan siqnalı səsləndirirlər - uşaqların əksəriyyəti məlumatları könüllü surətdə verir və ya məlumatlar xakterlərin hücumu nəticəsində itirilir. Amma bəzən servislər özləri istifadəçi haqqında vacib məlumatlar dərc edir (məsələn, onun yerini).

Nümunə kimi, qeyd edək ki, ABŞ-da qısa videolar üzrə populyar xidmət 5,7 milyon dollar cərimə olunmuşdur. Bunun səbəbi uşaqların məxfiliyinin qorunması haqqında qanun pozuntusudur: qeydiyyat üçün poçt, telefon və digər şəxsi məlumatları göstərmək lazımdır. Eyni zamanda, profillər və videolar - uşaq və yeniyetmələrin profilləri də daxil olmaqla, ictimaiyyətə açıq idi.

Uşaqları yuxarıda göstərilən təhdidlərdən qorumaq arzusu bəzən sosial şəbəkələrin istifadəsinə tam qadağaya gətirib çıxarır, amma bunu etməyi məsləhət görmürük - uşaq artıq sizə güvənə bilməz. Ancaq bir sıra tədbirlər görməyə dəyər:

İnternetdə təhlükəsizlik qaydalarını müzakirə edin: sosial şəbəkələrdə gizlilik parametrləri, kompleks parol birləşmələrinin istifədəsi haqqında məlumat verin;

Şübhəli faylların açılması və linklərə keçid təhlükəsi barədə xəbərdarlıq edin. Bu, sistemin pozulmasına və məlumatların əldə edilməsinə səbəb ola bilər;

Onlara izah edin ki, naməlum insanlara məlumatları vermək olmaz (ünvan, telefon nömrəsi, məktəb nömrəsini vermək və ya şəkil göndərmək);

Uşağınız təhdid və ya üz-üzə qarşılaşmalar təklifi alması halında diqqətli olun. Xüsusilə, şübhəli hallarda (məlumat oğurluğu, yazışmanın dərc edilməsi, şantaj) hüquq-mühafizə orqanlarına müraciət edin;

Sosial şəbəkələrdə keçiriləcək vaxtın müddətini razılaşdırın - bu dərslərə diqqət yetirməyə kömək edəcək, eyni zamanda, uşağınıza onlayn dincəlmək imkanını verəcəkdir (musiqi dinləmək, film izləmək və ya həmyaşıdları ilə söhbət etmək).

Uşaqların onlayn qorunması üçün əlavə bir tədbir valideyn nəzarəti funksiyası ilə antivirus (https://www.esetnod32.ru/home/products/parental-control/) quraşdırılması ola bilər.

Birincisi, uşağınızın harada olduğunu hər zaman biləcəksiniz - parametrlər yeri müəyyən etməyə imkan verir. İkincisi, təhlükəsiz axtarış və nəzarət saytları və tətbiqləri parametrləri sayəsində, uşaqlar yalnız münasib kontent görəcəklər. Bundan əlavə, video-oyunlar da daxil olmaqla, tətbiqlərin istifadəsinə həddi təyin edə bilərsiniz.

Müasir texnologiyalar, ailənin inamlı atmosferi ilə bir araya gəlməsi sayəsində valideynlərin sinirlərini qoruyacaq və uşağın məktəb, ev təsərrüfatlarının vəzifələri və əyləncə arasında tarazlığı müşahidə etməyə öyrədəcək.

Milli Məclisin deputatı Avropa Şurası Parlament Assambleyasının Miqrasiya, Qaçqınlar və Məcburi Köçkünlər üzrə Komitəsinin sədri Sahibə Qafarova qurumun Büro və Daimi Komitəsinin iclaslarında iştirak etmək üçün Danimarkanın paytaxtı Kopenhagen şəhərinə səfərə gedib. Büronun iclasına qatılan komitə sədri dünən Daimi Komitənin toplantısında iştirak edib. Toplantıda AŞPA-nın 2018-ci ilin ilk sessiyasının gündəliyi, növbəti il üçün yeni mandatların təqdim edilməsi, Qırğızıstanda keçirilmiş prezident seçkilərinin nəticələri və digər məsələlər müzakirə olunub.

Toplantıda Miqrasiya, Qaçqınlar və Məcburi Köçkünlər üzrə Komitənin məruzəçisi Doris Fialanın hazırladığı "Müşayiət olunmayan miqrant uşaqlar, uşaqlara uyğun yaşın təyin edilməsi" mövzusunda məruzənin müzakirələrində çıxış edən Sahibə Qafarova məruzənin kifayət qədər aktual bir mövzuya həsr olunduğunu vurğulayaraq, son dövrlər Avropada miqrasiya dalğasının genişlənməsindən sonra miqrant uşaqlarla bağlı problemin daha da dərinləşdiyini söyləyib, Sahibə Qafarova hazırda bütün üzv dövlətlərdə, uşaqların bir sıra hallarda, onların fiziki və mənəvi sağlamlığına ciddi ziyan vuran rəftarlarla, ailələrindən qorunmayan, müşayiət olunmayan uşaqların yaş qiymətləndirmədə və digər situasiyalarda heç də uşaq dostu olmayan tətbiqlərlə üzləşdiyini xatırladıb. Komitə sədrinin sözlərinə görə, bu münasibətə dərhal son qoyulmalı, uşaqlara qarşı belə qeyri-adekvat davranışın aradan qaldırılması üçün tədbirlər görülməlidir. "Ona görə də, hesab edirəm ki, bu məruzədə yer alan məsələlərin reallaşması uşaqlarla uşaq kimi davranmağa, uşaq hüquqlarının və ləyaqətinin qorunması öhdəliyinə hörmət göstərməyə kömək edəcək" deyə Sahibə Qafarova bildirib. Azərbaycan hökumətinin uşaqlara və onların hüquqlarının təmin olunması məsələlərinə çox həssaslıqla yanaşdığını qeyd edən millət vəkili, həmçinin, ölkəmizdə uşaq hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlər barədə də məlumat verərək deyib ki, Azərbaycan dövləti hər zaman uşaqlara diqqət göstərir, onların hüquqlarının qorunması sayəsində, bütün imkanları yaradır. Uşaqların hüquqlarının müdafiəsi valideynlərlə yanaşı, dövlətin də qarşısında duran əsas məqsəddir. Hər bir sənəddə qanunvericilik aktlarında uşaq problemləri öz əksini tapıb.

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# Turistlər Azərbaycanı seçir

*2019-cu ilin birinci yarısında Azərbaycanı ziyarət etmiş xarici qonaqların sayı 1,4 milyona çatıb*





Bu gün Azərbaycanda turizm yüksələn xətt üzrə inkişaf etməkdədir. Turizm sahəsində yaradılan geniş imkanlar xarici turistlərin ölkəmizə səfər etməsinə böyük təsir göstərir. Son illər dövlətin dəstəyi ilə Azərbaycanda turizm sənayesi özünün inkişaf dövrünü yaşayır. Ölkəmizdə dünyada tanınmış brend hotellər fəaliyyət göstərir və müasir hotel xidmətinin qurulması istiqamətində böyük irəliləyiş əldə olunub. Beynəlxalq miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsi Azərbaycanın tanıdılması, eləcə də, xarici turist axınına güclü təkan verib. Həmçinin, bir sıra xarici ölkə vətəndaşları üçün viza sisteminin sadələşdirilməsi və "ASAN viza" sisteminin tətbiqi də bu sahənin inkişafına müsbət təsir edib.

Görülən işlərin nəticəsidir ki, 2019-cu ilin birinci yarısında Azərbaycanı ziyarət etmiş xarici qonaqların sayı 1,4 milyona çatıb ki, bu da ötən ilin eyni dövründə ölkəyə gəlmiş 1,3 milyon xarici ziyarətçi ilə müqayisədə 86 min və ya 6,5% çox qonaq deməkdir.

Gələnlərin böyük hissəsini 29,4%-lə Rusiya (414 min), digər böyük hissəsini isə 24,3%-lə Gürcüstan (342 min) vətəndaşları təşkil edib. Gürcüstan üzrə artım 22,8% və ya 64 min nəfər olub.

Qeyd etmək lazımdır ki, bu iki ölkədən gələn qonaqların sayı ümumi gələnlərin 50%-dən çox hissəsini təşkil edib. Türkiyədən gəlmiş qonaqların sayı 3,7% artaraq, 148 minə çatıb. Cənubi və Mərkəzi Asiya ölkələrindən gələnlərin sayında yenə də sürətli artım müşahidə olunur - artım ilin ilk yarısı üçün müvafiq olaraq, 37,8% və 50,2% olub.

Azərbaycan üçün Cənubi Asiyanın əsas turizm bazarları Hindistan (27 min; 80,2% artım) və Pakistan (19 min; 24,4% artım), Mərkəzi Asiyada isə Qazaxıstan (20 min; 15,1% artım) və Türkmənistandır (21 min; 85% artım). Səudiyyə Ərəbistandan gələnlərin sayında isə, təxminən, 80% artım müşahidə olunur ki, bu da 15 min nəfər artımla 34 mindən çox xarici vətəndaş deməkdir.

Göründüyü kimi, 2019-cu ilin iyun ayında gələnlərin sayında əhəmiyyətli dərəcədə artım müşahidə olunub - bu artım 17,2% təşkil edib. Bu tendensiya özünü Azərbaycan turizmi üçün xarakterik olan bütün ölkələr üzrə göstərib.

**_Zümrüd BAYRAMOVA_**

## ELAN

ADPU-nun Kimya-biologiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Baxışlı Tərlan Sudef oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.



# "Xalqa xidmətdə keçən ömür"

*Suraxanıda Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə tədbir keçirilib*

***Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 50 illiyi münasibəti ilə Suraxanı rayon icra hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Suraxanı rayon təşkilatının birgə təşkilatçılığı ilə "Xalqa xidmətdə keçən ömür" adlı tədbir keçirilib.***



Tədbir Yeni Suraxanı qəsəbəsində "14 İyul" küçəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi hakimiyyətə gəldiyi günü tərənnüm etdirən Xatirə Kompleksinə baxış keçirməklə başlanıb. Hər il rayon ictimaiyyətinin nümayəndələrinin 14 iyul tarixində Xatirə Kompleksini ziyarət etməsi bir ənənə halını alıb.



YAP Suraxanı rayon təşkilatının akt zalında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 50 illiyi münasibəti ilə keçirilən tədbir Dövlət himninin səsləndirilməsi ilə başlanıb. Sonra Ulu Öndər haqqında film nümayiş olunub. Tədbir iştirakçıları bir dəqiqəlik sükutla Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini yad ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov bildirib ki, 1969-cu il 14 iyulun Azərbaycanın yeni tarixində müstəsna özəlliyi var: "Həmin gün Ulu Öndər Heydər Əliyev respublikanın rəhbərliyinə yüksəlib. Məhz həmin tarixdən başlayaraq, respublika həyatının bütün sahələri köklü islahat və sürətli inkişaf yoluna qədəm qoyub. Ulu Öndər Heydər Əliyevin Azərbaycan SSR-ə rəhbərlik etdiyi illərdə gələcək müstəqil dövlətin iqtisadi qüdrətinin təməli qoyulub, respublika inkişaf tempinə görə keçmiş İttifaq miqyasında öncül sıralara çıxıb. O zamandan başlayan böyük tarixi mərhələdə Ulu Öndər Heydər Əliyev ideyaları həyatımızın başlıca gerçəkliyi, inkişafımızın təməl daşı olaraq qalmaqdadır".

Tədbirdə çıxış edən rayon icra hakimiyyəti başçısının birinci müavini Rəşad Hacıyev qeyd edib ki, 14 iyul xalqımızın tarixi taleyində oynadığı misilsiz rolu ilə həmişə xatırlanır və heç vaxt unudulmayacaq günlərin sırasına həkk olunmuşdur. O bildirib ki, Ulu Öndər Heydər Əliyev və Onun ən layiqli davamçısı Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanı bugünkü nailiyyətlərə addım-addım gətirmişlər.

Tədbirdə çıxış edən YAP-ın İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mixail Zabelin bildirib ki, Ümummilli Lider Heydər Əliyev hər birimizin həyatında dərin iz buraxıb. O, hər şeydən əvvəl, uzaqgörən siyasətçi idi. Ulu Öndər Heydər Əliyev öz siyasəti ilə, ilk növbədə, xalqımızın, cəmiyyətimizin birliyini təmin edib və qoruyub.

YAP Siyasi Şurasının üzvü Firdovsi Əliyev qeyd edib ki, XX yüzilliyin 60-cı illərinin sonunda Ulu Öndər Heydər Əliyevin doğma xalqa həsr olunmuş ömür yolunda yeni, daha geniş, çoxşaxəli, qaynar fəaliyyət dövrü başlandı. 1969-cu ildə - Azərbaycan SSR-də həyatın bütün sahələrində dərin tənəzzülün hökmranlıq etdiyi bir şəraitdə Heydər Əliyev ölkənin ali idarəçilik sükanı arxasına keçdi. Bununla, Azərbaycanın tarixində böyük dönüş dövrü başlandı.

Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyası beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin nəzəri irsi Azərbaycan dövlətçiliyinin yaranması, qorunması və inkişaf etdirilməsinin əsasıdır: "Bu əsərlər siyasi, tarixi, azərbaycançılıq, vətəndaşlıq, dövlət quruculuğu, vətən sevgisi, vətənə məhəbbət dərsliyidir. Ulu Öndər Heydər Əliyevin xaos və anarxiyadan xilas edib, dinamik islahatlar yoluna çıxardığı Azərbaycan hazırda Onun layiqli davamçısı - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilmişdir".

**_ZÜMRÜD BAYRAMOVA_**


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**